DİQQƏT!

## SƏS QƏZETİNDƏN NÖVBƏTİ YENİLİK!

Səs qəzeti artıq Azərbaycanda ilk dəfə olaraq Video qəzet formatında nəşrə başladı.

Video xəbəri izləmək üçün telefonunuzun kamera bolməsinə daxil olub QR kodunu telefonunuza oxuduraq ekrana gələn linkə daxil olun.

**QEYD:** Android telefonlar üçün QR Code Reader skine proqramını telefonunuza yükləyərək videolara daxil ola bilərsiniz.



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 150 (6114) 1 sentyabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## İtaliyanın "Eurasianews" xəbər agentliyi Birinci vitse-prezident Mehriban Əliyeva haqqında məqalə yayıb


EURASIA News
News agency & Current Affairs
Politica Economia Cultura Mondo Eurasia Tecnolo
Sport Popoli Eventi Religioni Wine & Food Search
Published on agosto 30th, 2020 | by Eurasia News
Mehriban Aliyeva's tireless activities won deep respect and

İtaliyanın "Eurasianews" xəbər agentliyi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva haqqında məqalə yayıb. Məqalədə Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətindən, xeyirxah əməllərindən, sivilizasiyalararası dialoqa töhfələrindən, Azərbaycanın dünyada tanıdılması istiqamətində gördüyü işlərdən bəhs edilir. AZƏRTAC-ın "Vətənin...

Bax 5

# "COVID ilə mübarizədə Azərbaycan çox uğurlu fəaliyyət aparır"

Bax 2



Prezident İlham Əliyev koronaviruslu xəstələrin müalicəsi üçün modul tipli növbəti hospitalın açılışında videoformatda iştirak edib

## Prezidentin köməkçisi ekologiya, sudan səmərəli istifadə və səhiyyə istiqamətində fəaliyyət göstərən QHT-lərlə görüşüb



*Avqustun 31-də Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev ekologiya, sudan səmərəli istifadə və səhiyyə...*

Bax 6

## Azərbaycan tankçıları sərrast atışla 3 hədəfi məhv etdi



Bax 7

"Beynəlxalq Ordu Oyunları - 2020" yarışları çərçivəsində keçirilən "Tank biatlonu" müsabiqəsində iştirak edən tankçılarımız yarışların növbəti günündə "Fərdi sürücülük" mərhələsində iştirak ediblər. Müdafiə Nazirliyindən SİA-ya verilən məlumatda...

## Ermənistanda "qızğın payız" gözlənilir



*Ermənistanda payız fəslinin, deyəsən, nəzərdə tutulandan, da, hətta ənənəvi haldan da "qızğın" keçəcəyi gözlənilir. Necə deyərlər, cücəni payızda saymaq vaxtı çatıb və heç də Ermənistan hakimiyyətinin arzuladığı şəkildə sayılacağı gözlənilmir...*

Bax 11

## "Neftçi" "Qalatasaray"a rəqib oldu!

Avqustun 31-də İsveçrənin Nyon şəhərində UEFA Avropa Liqasının II təsnifat mərhələsinin püşkü atılıb. Ölkəmizin bu turnirdəki yeganə təmsilçisi olan Bakının "Neftçi" klubunun hansı komanda ilə qarşılaşacağını ölkəmizin idman azarkeşləri maraqla gözləyirdilər. Püşkün nəticəsindən sonra məlum oldu ki, "Neftçi" II təsnifat mərhələsində evdə Türkiyənin...




Bax 16

### Vüqar Rəhimzadə: "Qətiyyətli addımlar, vətəndaş məsuliyyəti daha tez zamanda normal həyata qayıtmağa əsas yaradır"



Bax 7

### "Ölkəmizdə İslam dininə aid olan bütün mərasimlər dövlətin diqqətinə olub"



Bax 7

### Robert Koçaryan: "Amulsar ətrafında baş verənlər dərəbəyliyin nümunəsidir"



Bax 16

# "COVID ilə mübarizədə Azərbaycan çox uğurlu fəaliyyət aparır"

*Prezident İlham Əliyev koronaviruslu xəstələrin müalicəsi üçün modul tipli növbəti hospitalın açılışında videoformatda iştirak edib*

***Avqustun 31-də Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalının açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hospitalın açılışında videoformatda iştirak edib. Tibb müəssisəsinin kollektivi ilə videoformatda görüşən dövlətimizin başçısı çıxış etdi.***



Prezident İlham Əliyevin çıxışı

Bu gün ölkəmizdə yeni böyük xəstəxana açılır. Bu münasibətlə sizi təbrik edirəm. İyul ayının əvvəlində həmin ərazidə birinci xəstəxananın açılışı qeyd edilmişdi. Bu açılışda mən iştirak etmişəm. O xəstəxanada çarpayıların sayı 800-dən çoxdur. Bu, ölkəmizin ən böyük xəstəxanalarından biridir. Artıq bu xəstəxanalarda COVID xəstələri müalicə alır. O gün göstəriş verdim ki, avqustun sonuna qədər həmin ərazidə daha bir xəstəxana tikilsin. Bu gün avqustun 31-də biz buna nail ola bilmişik.

Bu gün açılan xəstəxanada 820-dən çox çarpayı mövcuddur. Ancaq qısa müddət ərzində biz bu çarpayıların sayını 1500-ə qədər artıra bilərik. Bu xəstəxananın xüsusi özəlliyi ondan ibarətdir ki, burada 130 intensiv terapiya-reanimasiya yeri vardır. Əminəm ki, bu gün açılan xəstəxananın fəaliyyəti COVID-19 ilə apardığımız mübarizədə çox önəmli rol oynayacaq.

Bildirməliyəm ki, pandemiya dövründə ölkəmizdə yeni xəstəxanaların tikintisi geniş vüsət almışdır. Bu məqsədlər üçün böyük vəsait ayrılmışdır, bütün imkanlar səfərbər edilmişdir. Çünki mövcud çarpayı fondu imkan vermirdi ki, biz bu dəhşətli pandemiya ilə uğurla mübarizə aparaq. Cəmi altı ay ərzində ölkəmizin çarpayı fondu böyük dərəcədə artırılmışdır. Ölkəmizin ən gözəl və ən müasir xəstəxanası - Yeni Klinika açılmışdır. Yeni Klinikada çarpayıların sayı 600-ə yaxındır. Hazırda təqribən 400-ə yaxın çarpayı hazır vəziyyətdədir. Bununla bərabər, modul tipli 11 xəstəxana inşa edilmişdir. Bu xəstəxanalarda çarpayıların sayı 4100 səviyyəsindədir.

Onu da bildirməliyəm ki, modul tipli 7 xəstəxananın tikintisi nəzərdə tutulub. Amma hazırda buna ehtiyac yoxdur. Çünki ölkəmizdə xəstələrin sayı azalır və əgər ehtiyac yaranarsa, qısa müddət ərzində əlavə 1400 çarpayılıq xəstəxanalar inşa oluna bilər. Ehtiyat variantı kimi biz ölkəmizin iki Olimpiya Kompleksini də xəstəxanalara çevirdik və orada da 300-dən 500-ə qədər xəstə müalicə ala bilər.

Bütün bunlar bir daha onu göstərir ki, COVID ilə mübarizədə Azərbaycan çox uğurlu fəaliyyət aparır, qəbul edilmiş qərarlar vaxtında və yüksək keyfiyyətlə icra edilir. Bu və digər amillər imkan verdi ki, biz vəziyyəti nəzarət altında saxlayaq. Bildirməliyəm ki, hazırda COVID xəstələri üçün 46 xəstəxana fəaliyyət göstərir. Onu da bildirməliyəm ki, bu xəstəxanaların 41-i son 17 il ərzində inşa edilmişdir. Məhz regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası nəticəsində bütün bölgələrimizdə, bütün şəhərlərimizdə müasir tibb ocaqları yaradılıb. Təsəvvür etmək çətin deyil ki, əgər biz vaxtında bu addımı atmasaydıq, bu gün hansı problemlərlə üz-üzə qala bilərdik. Tam məsuliyyətlə deyə bilərəm ki, əgər vaxtında bu xəstəxanalar tikilməsəydi, bu gün biz çox ağır vəziyyətə düşə bilərdik. Nəinki xəstəxanalar tikilib, ən müasir avadanlıqlarla təchiz olunub və bu gün də bu proses davam etdirilir.

COVID ilə mübarizədə bizim səhiyyə sistemimizin maddi-texniki bazası xüsusi rol oynayır. Bununla bərabər, laboratoriyaların sayını böyük dərəcədə - bir neçə dəfə artırmışıq. Pandemiya başlayanda bizim cəmi 6 laboratoriyamız var idi. Bu gün biz o laboratoriyaların sayını 45-ə çatdırırıq. Ölkəmizdə 900 mindən çox test keçirilibdir. Adambaşına düşən testlərin sayına görə Azərbaycan dünya miqyasında qabaqcıl yerlərdədir. Bu da təbiidir, nə qədər çox test keçirirsən, o qədər də çox yoluxma halları aşkarlanır. Bizim əsas məqsədimiz və vəzifəmiz məhz bundan ibarətdir ki, bütün yoluxanlar müayinədən keçirilsin və onlara vaxtında tibbi xidmət göstərilsin.

Bildirməliyəm ki, pandemiya ilə əlaqədar Azərbaycan həkimlərinə xüsusi diqqət göstərilir. Səhiyyə sistemində çalışan insanlar prinsip etibarilə daim dövlət tərəfindən qayğı ilə əhatə olunur. Tikilmiş xəstəxanalar həkimlərin iş yeridir. Həkimlərin həm iş yerlərinin müasirləşdirilməsi, eyni zamanda, onların maliyyə vəziyyətinin yaxşılaşdırılması daim diqqət mərkəzində olub. Pandemiya dövründə bu diqqət daha da genişmiqyaslı olub. Təkcə onu demək kifayətdir ki, COVID xəstələrinə xidmət edən həkimlərin əməkhaqqı 3-5 misli artırılıb. Ancaq burada əsas problem həkimlərin sayındadır. Çünki heç bir ölkə bu pandemiyaya hazır deyildi. Heç kimin ağlına gələ bilməzdi ki, dünya belə bir bəla ilə üzləşəcək. Bizdə və eləcə də bütün başqa ölkələrdə həkimlərin sayı normal həyat rejiminə hesablanıb. Ona görə, əlavə həkimlərin Azərbaycana dəvət edilməsi gündəlikdə duran məsələlərdən biri idi. Hesab edirəm ki, biz operativ və səmərəli addımlar nəticəsində bu sahədə də məsələni həll etdik. Azərbaycana beş ölkədən - Türkiyədən, Rusiyadan, Çindən, İtaliyadan, Kubadan həkim briqadaları gəlmişdir və bu həkimlər bizə kömək göstərirlər.

Bir sözlə, görülən bütün bu işlər öz səmərəsini verir. Təsadüfi deyil ki, son həftələr ərzində COVID ilə mübarizədə vəziyyət daha müsbətdir. Biz müsbət dinamikanı görürük və ümid edirəm ki, bu dinamika bundan sonra da qorunub saxlanılacaqdır.

Biz Ümumdünya Səhiyyə Təşkilatı ilə ilk günlərdən sıx təmasda idik. Bu gün də bu təmaslar davam edir. Bildiyiniz kimi, Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanda bu sahədə görülən işlərə çox yüksək qiymət vermişdir və Azərbaycanı nümunəvi ölkə adlandırmışdır. Bu, həqiqətən də belədir. Yəni, görülmüş işlər, bu sahəyə ayrılan dövlət vəsaiti, səfərbərlik işləri, xəstəxanaların, laboratoriyaların inşası, sosial proqramların həyata keçirilməsi - bütün bunlar, əminəm ki, bizim mübarizədə əsas rol oynamışdır. Ona görə bu gün də bu təmaslar davam edir və əminəm ki, biz birgə səylərlə bu məsələnin - COVID-in nəzarətdə saxlanması-nı təmin edəcəyik. Onu da bildirməliyəm ki, Azərbaycan məsuliyyətli və beynəlxalq müstəvidə böyük nüfuz qazanmış ölkə kimi, digər ölkələrə də humanitar yardım göstərib. Artıq Azərbaycan 30-dan çox ölkəyə humanitar yardım göstərib və bu, bizim ümumi mübarizəyə verdiyimiz böyük töhfədir.

Təbii ki, pandemiya həm ölkə iqtisadiyyatına, həm də insanların sosial vəziyyətinə mənfi təsir göstərmişdir. Bu təsirin fəsadlarını azaltmaq üçün praktiki addımlar atılır. Beş milyona yaxın insan geniş sosial paketlə əhatə olunub. Həm dövlət sektorunda, həm özəl sektorda işləyənlər, eyni zamanda, işsizlər, o cümlədən qeyri-formal formada işləyənlər, aztəminatlı təbəqəyə aid olan insanlar - bütün kateqoriyadan olan insanlar dövlət tərəfindən maddi dəstəklə təmin edilib. Bu, bir daha onu göstərir ki, insanların rifahı, onların sosial vəziyyəti və əlbəttə ki, sağlamlığı bizim üçün əsas məsələdir.

Mən bunu bəri başdan - pandemiyanın ilk günlərindən demişdim ki, insanların sağlamlığı bizim üçün prioritet məsələdir və biz bütün səylərimizi bu məsələnin həllinə istiqamətləndirdik. Təbii ki, belə olan halda iqtisadi sahədə çətinliklər də labüd idi. Ancaq hesab edirəm ki, başqa ölkələrlə müqayisədə Azərbaycanda iqtisadi sahədə də vəziyyət daha yaxşıdır.

**Ardı Səh. 3**

# “COVID ilə mübarizədə Azərbaycan çox uğurlu fəaliyyət aparır”

*Prezident İlham Əliyev koronaviruslu xəstələrin müalicəsi üçün modul tipli növbəti hospitalın açılışında videoformatda iştirak edib*

Əvvəli Səh. 2



Biz yaxşı bilirik ki, bəzi inkişaf etmiş ölkələrdə pandemiya dövründə iqtisadi tənəzzül 10, 15, 20, 25 faiz səviyyəsindədir. O cümlədən Avropanın inkişaf etmiş ölkələrində yüksək səviyyədədir. Ölkəmizdə isə görülmüş tədbirlər nəticəsində 7 ayda iqtisadiyyat cəmi 2,8 faiz aşağı düşüb. Hesab edirəm ki, dünyada mövcud olan ümumi mənzərəni nəzərə alsaq bu, yaxşı göstəricidir.

Ancaq əlbəttə ki, biz postpandemiya dövrünə də hazır olmalıyıq və müvafiq göstərişlər verilibdir. Postpandemiya dövrü nə vaxt başlayacaq, bunu hələ ki, heç kim deyə bilmir. Ancaq dünyada gedən araşdırmalar, tədqiqatlar, peyvəndlərin üzərində işin aparılması ümidverici siqnallar verir. Onu da bildirməliyəm ki, biz hazırda bir neçə şirkətlə COVID-ə qarşı peyvəndin ölkəmizə gətirilməsi ilə əlaqədar fəal iş aparırıq. Mən ümid edirəm ki, Azərbaycan bu sahədə də peyvəndi əldə edən birinci ölkələr sırasında olacaqdır. Çünki biz artıq bir müddətdir ki, bu məsələ ilə əlaqədar çox fəal iş aparırıq. Ancaq burada əsas şərt bu peyvəndin bütün sınaq mərhələlərindən keçməsidir. Həkimlər yaxşı bilirlər ki, istənilən yeni peyvənd bir neçə mərhələdən keçir və yalnız ondan sonra bazara çıxarılır, insanların vaksinasiyası üçün istifadə olunur. Ona görə bütün mərhələlər, şirkətlərin apardığı bütün araşdırmalar öz nəticəsini verəndən, bütün sınaq testləri və beynəlxalq sertifikatlaşdırma aparılandan sonra biz bu peyvəndi ölkəmizə gətirəcəyik və ümid edirəm, ondan sonra demək olacaq ki, bu dəhşətli vəziyyət arxada qalıb. Hesab edirəm ki, biz o vaxta qədər öz addımlarımızı mövcud vəziyyətə uyğun atmalıyıq. İlk günlərdən biz bunu etmişik. Bu altı ay ərzində məhdudlaşdırıcı tədbirlərin sərtləşdirilməsi, eyni zamanda, yumşalma addımları atılmışdır və təqribən iyul ayının ortalarından başlayaraq müsbət dinamika artıq özünü büruzə verdi. Belə olan halda, əlbəttə ki, biz yumşalma addımlarımıza da başladıq və təkcə avqust ayında yumşalma tədbirlərinin sayı 3-ə çatmışdır. Əgər müsbət dinamika davam edərsə və xəstələrin sayında artım olmazsa, onda əminəm ki, bundan sonra da yumşalma tədbirləri görüləcəkdir. Çünki hazırda ölkəmizdə hər gün 100-dən 200-ə qədər insan yoluxur və əvvəlki aylarla müqayisədə bu, əlbəttə ki, daha yaxşı nəticədir. Ancaq vəziyyəti daim nəzarət altında saxlamaq üçün həm gündəlik monitorinq aparılır və aparılacaqdır, eyni zamanda, yumşalma addımları elə atılmalıdır ki, xəstələrin sayı kəskin artmasın. Bu, əsas məsələdir və biz burada, əlbəttə ki, öz addımlarımızı çox ehtiyatla atacağıq. Bununla bərabər olaraq, artıq fəal açılışlara gedən ölkələrin təcrübəsinə də nəzər salacağıq. Çünki hazırda bir neçə ölkə artıq öz sərhədlərini və bir çox obyektlərini açıbdır, turistləri qəbul etməyə başlayıbdır. Ancaq biz həmin ölkələrdə nəyi görürük? Onu görürük ki, orada xəstələrin sayı kəskin artıb. O cümlədən inkişaf etmiş Avropa ölkələrinin təcrübəsinə baxsaq görərik ki, avqust ayında xəstələrin sayı ən pik həddə çatıbdır, hətta aprel ayının səviyyəsinə qalxıbdır. Baxmayaraq ki, aprel ayından yay aylarına qədər bütövlükdə dünyada, o cümlədən Avropada xəstələrin sayının azalması müşahidə olunurdu. Yəni, bu, nəyi göstərir, bir daha onu göstərir ki, bu xəstəlik heç də yoxa çıxmayıb. Bu xəstəlik var və belə olan halda dövlət tərəfindən bütün lazımi addımlar atılmalıdır, eyni zamanda, vətəndaşlar da çox sadə qoruyucu metodlardan istifadə etməlidir - məsafə saxlamalıdır, maska taxmalıdır, dezinfeksiya vasitələrindən istifadə etməlidir.

Əlbəttə ki, bəzi Avropa ölkələrində xəstələrin sayında kəskin artım bizi düşündürür və daha ehtiyatlı addımların atılmasına sövq edir. Çünki bir daha demək istəyirəm ki, birinci dərəcəli məsələ insanların sağlamlığıdır. Əgər vətəndaşlarımız bundan sonra da məsuliyyətli olarlarsa, - mən qeyd etməliyəm ki, son müddət ərzində biz bu məsuliyyəti doğrudan da görürük, hiss edirik, bu, real nəticələrdə öz əksini tapır, - hesab edirəm ki, qısa müddət ərzində biz normal, adi həyata qayıda bilərik. Amma buna nail olmaq üçün əlbəttə ki, vətəndaşların məsuliyyəti hazırda birinci dərəcəli məsələdir. Çünki dövlət üzərinə nə düşübsə, onu edib - qeyd etdiyim addımlar, ayrılan vəsait. Hətta baxmayaraq ki, dünyada neftin qiyməti hələ də aşağı səviyyədədir və iqtisadi sahədə tənəzzül var, biz büdcəmizi artırmışıq. Büdcəmizə əlavələr edildi, büdcə dürüstləşməsi aparıldı və bunun əsas məqsədi pandemiyaya qarşı mübarizədə daha da səmərəli addımların atılması və vətəndaşların sosial müdafiəsinin təmin edilməsidir.

Birmənalı şəkildə deyə bilərəm ki, Azərbaycanda tətbiq olunan qaydalar, vəziyyətə uyğun şəkildə atılan addımlar və karantin rejimi öz səmərəsini verir. Bunun nəticəsində artıq bir çox şəhərlərdə bütün karantin məhdudiyyətləri aradan qaldırılıb. Ancaq böyük şəhərlərdə bu qalıbdır və bizim hamımızdan asılıdır ki, daha da inamla və daha da qısa müddət ərzində əlavə yumşalma addımları ataq.

Əfsuslar olsun ki, bu gün hələ də bu vəziyyəti dərk etməyənlər, məsuliyyətini itirmiş insanlar da mövcuddur və qaydaların kobudcasına pozulması halları da vardır. Belə hallar aşkarlananda təbii ki, cəza tədbirləri də mütləq olmalıdır və tətbiq edilir. Cəza tədbirləri bütün kateqoriyalardan olan insanlara tətbiq edilir. Heç bir ayrı-seçkiliyə yol verilməməlidir və verilmir. İctimai vəziyyətinə, ictimai statusuna baxmayaraq qanun qarşısında hamı bərabərdir. Azərbaycanda bərabərlik, ədalət və qanunun aliliyi əsas prinsiplərdən biridir və mən bütün vətəndaşları məsuliyyətə çağırıram. Birincisi, özlərini, öz yaxınlarını qorumaq üçün daha məsuliyyətli olmalıdırlar, digər tərəfdən qaydaları pozanlar, böyük kütləvi tədbirlər təşkil edənlər və beləliklə, ölkə qanunları ilə və mövcud olan qaydalarla nümayişkaranə hesablaşmayanlar mütləq öz cəzasını alacaq və alır. İctimaiyyət də bu məsələ ilə bağlı məlumatlandırılır. Hesab edirəm ki, Azərbaycan vətəndaşları yaxşı görürlər ki, qanun hər kəs üçün qanundur. Heç kim qanundan üstün ola bilməz, heç kimdə heç bir imtiyaz ola bilməz və heç kimə heç bir güzəşt edilmir və edilməyəcək.

Mən bir daha demək istəyirəm ki, görülmüş bütün işlər bir məqsədi güdür ki, biz bu vəziyyətdən az itkilərlə çıxaq. Hesab edirəm ki, biz buna nail oluruq. Hər şey müqayisə ilə ölçülür. COVID-lə bağlı dünya statistikasına baxdıqda görürük ki, ölkəmizdə əldə edilmiş nəticələr doğrudan da çox təsirlidir, çox dəyərlidir. Mən hesab edirəm ki, biz məhz bu tədbirlər nəticəsində minlərlə insanın həyatını qoruduq. Qoymadıq ki, xəstəlik geniş vüsət alsın, qoymadıq ki, bu, nəzarətdən çıxsın və bundan sonra da bunu edəcəyik. Nə qədər lazımdırsa, o qədər də edəcəyik. Əminəm ki, birgə səylər nəticəsində, həm də bundan sonra dövlətin qətiyyətli və düşünülmüş ədalətli addımları, vətəndaşların məsuliyyəti imkan verəcək ki, biz bu ağır vəziyyətdən az itkilərlə çıxaq və daha tez bir zamanda normal, adi həyata qayıdaq.

Mən sizi bir daha bu böyük xəstəxananın açılışı münasibətilə təbrik etmək istəyirəm, həkimlərə uğurlar, cansağlığı arzulayıram. Sağ olun.

X X X

Sonra Fövqəlada Hallar Nazirliyinin Tibbi və Psixoloji Yardımın təşkili şöbəsinin rəisi, tibb xidməti mayoru Xanım Sofiyeva bu tibb müəssisəsinin yaradılmasına görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya minnətdarlığını bildirdi, dövlətimiz tərəfindən tibb işçilərinin, həkimlərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə görülən işlərdən məmnunluqla danışdı. O bildirdi ki, Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin bu gün açılışı olan modul tipli hospitalı ən müasir tibbi avadanlıqla təchiz olunub. Bu da öz növbəsində koronaviruslu xəstələrin müalicəsi işini yüksək səviyyədə aparmağa geniş imkan verəcək.

X X X

Qeyd edək ki, Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalı ən müasir standartlara cavab verir. Hospitalda koronavirus infeksiyasına yoluxmuş xəstələrin müalicəsi üçün bütün şərait yaradılıb, müasir avadanlıqlar quraşdırılıb. Bu il iyulun 7-də açılan 800 çarpayılıq hospital artıq 2277 çarpayılıq tibb müəssisəsinə çevrilib. Burada hər bir çarpayı oksigen xəttinə birləşmiş cihazlarla təmin olunub. Tibb müəssisəsində ümumilikdə 267 reanimasiya çarpayısı var. Burada quraşdırılan avadanlıqlar istər müalicə, istərsə də müayinə işini ən yüksək səviyyədə aparmağa imkan verir. Hospitalın laboratoriyalarında müxtəlif müayinələri dəqiqliklə və operativ şəkildə aparmaq mümkün olacaq. Tibb müəssisəsində yaradılan məlumatların idarəetmə sistemi sayəsində mərkəzi qərargahda müalicə prosesinə aid bütün məlumatlar qəbul edilir və müalicə prosesi bu qərargahdan idarə olunur.

Ümumilikdə ölkədə modul tipli xəstəxanaların istifadəyə verilməsi koronavirusa yoluxanların lazımi tibbi xidmətlərlə əhatə olunması üçün vahid idarəetmə və tibbi əlaqələndirmənin təmin edilməsində böyük rol oynayır.

# Rusiyanın Rostov vilayətində "Sambek yüksəklikləri" - Böyük Vətən müharibəsinin yeni hərbi-tarixi muzey kompleksinin açılışı olub

## *Bununla bağlı "Rossiya-24" və "Rossiya-1" televiziya kanallarının reportajlarında Prezident İlham Əliyevin müsahibəsi təqdim edilib*

***Avqustun 30-da Rusiya Federasiyasının Rostov vilayətində "Sambek yüksəklikləri" - Böyük Vətən müharibəsinin yeni hərbi-tarixi muzey kompleksinin açılışı olub. AZƏRTAC xəbər verir ki, bununla bağlı Rusiyanın "Rossiya-24" və "Rossiya-1" televiziya kanallarında reportajlar göstərilib, əsasən azərbaycanlılardan ibarət olan 416-cı Taqanroq diviziyasının qəhrəmanlıqları barədə geniş məlumat verilib. Reportajlarda Prezident İlham Əliyevin müsahibəsi təqdim olunub.***



Aparıcı: Bu gün Rostov vilayətində "Sambek yüksəklikləri" adlı xalq hərbi-tarix muzeyinin açılışı olub. Bu addakı "xalq" sözü təsadüfi deyil, çünki muzey veteranların və ləpirçilərin təşəbbüsü ilə yaradılıb. Sambek şiddətli döyüşlərin keçirildiyi yerdir. 1941-ci ildə faşistlər Rostova can atanda da, 1943-cü ildə bizimkilər hücuma keçəndə də. Bu yüksəklik təkcə Rusiya üçün deyil, həm də Azərbaycan üçün vacibdir. Bu gün Azərbaycan Prezidenti də həmin hadisələr barədə danışıb.

Veronika Boqmanın reportajında deyilir ki, muzey kompleksi real döyüşlərin baş verdiyi ərazidə yerləşir. 160 kilometrlik Mius cəbhə xətti boyunca 14,5 hektar döyüş sahəsidir.

Rostov vilayətinin qubernatoru Vasili Qolubev: Hitlerçilərin bizim diyarda törətdikləri dağıntı, barbarlıq və qeyri-insani hərəkətlər o vaxta qədər tarixdə görünməmişdi. Böyük Vətən müharibəsinin veteranları və iştirakçıları barədə xatirəni hər bir ailədə qayğı ilə qoruyub saxlayırlar. 2017-ci ilin baharında buradakı Şöhrət xiyabanında 325 döyüşçü ehtiramla torpağa tapşırılıb, onlardan 19-nun adı müəyyən edilib.

Reportajda bildirilir ki, hərbi-tarix muzeyi İnformasiya-Sərgi Mərkəzi, balaca kilsə, amfiteatr, alma bağı da daxil olmaqla, 8 açıq məkandan ibarətdir. Burada hitlerçilərin istehkam maketləri də qurulub. Təkcə ön xətdə 3 min kilometrə yaxın xəndək qazılmışdı. Bu, Berlinə qədər məsafədən iki dəfə çoxdur.

Sambek yüksəklikləri Mius çayının sağ sahilində Donetsk diyarının cənub yamaclarındakı yüksəkliklər, təpələr, kurqanlar silsiləsidir. Bu kurqanlardan ən ucası buradan 40 kilometr məsafədə yerləşən Saur-Mogila kurqanıdır. Onun hündürlüyü 277,9 metrə bərabərdir. Faşistlər burada, Sambekdə dəniz səviyyəsindən 80-100 metr yüksəklikdə onların əlçatmaz olması üçün nə mümkündürsə edirdilər.

Mius cəbhəsinin döyüşçülərinin xatirəsinə ilk memorial burada 1980-ci ildə, Qələbənin 35 illiyi şərəfinə ucaldılıb. Həmin memorial Azərbaycan Respublikasının vəsaiti hesabına və onun fəal iştirakı ilə inşa edilmişdi. Açılış mərasiminə Heydər Əliyevin başçılıq etdiyi nümayəndə heyəti gəlmişdi.

Ulu öndər Heydər Əliyev: Don torpağında ucaldılmış möhtəşəm monument Rostov vilayəti və Azərbaycan zəhmətkeşlərinin bu döyüşlərin sağ qalmış və həlak olmuş bütün qəhrəmanlarının nəcib xatirəsinə hörmət və minnətdarlıq əlamətidir.

Prezident İlham Əliyev: Bu, təsadüfi deyildi. Çünki Rostov vilayətini azad etmiş 416-cı Taqanroq atıcı diviziyasının döyüşçülərinin 90 faizindən çoxu əslən Azərbaycandan idi. 416-cı Taqanroq diviziyası təkcə Rostovu deyil, bütün Rostov vilayətini, o cümlədən Taqanroq şəhərini azad edib, bundan sonra diviziyaya Taqanroq adı verilib. Melitopol, Kişineu, Odessa şəhərlərini də 416-cı diviziya azad edib. Bu diviziya uğurla həyata keçirilmiş Mozdok əməliyyatında xüsusilə fərqlənib. Əslində, bu əməliyyat Bakı şəhərinin faşistlər tərəfindən tutulmasının qarşısını alıb. Əks halda, Böyük Vətən müharibəsinin nəticələri fəlakətli olardı. O dövrdə cəbhə üçün yanacağın 80 faizini və sürtkü yağlarının 90 faizini Azərbaycan təchiz edirdi. Əgər Azərbaycan və onun mədənləri faşistlərin əlinə keçsəydi, müharibənin nəticəsi tamam başqa olardı.

Reportajda deyilir: Bəli, Don faşistləri təkcə ucsuz-bucaqsız məhsuldar tarlalara malik olan taxıl mənbəyi kimi cəlb etmirdi. Qafqazın qapısı, Maykopa, Qroznıya, Bakıya, daha sonra Fars körfəzinə gedən yollar buradan başlanırdı. 416-cı diviziyanın Mius cəbhəsində olduğu yarım il ərzində o, böyük itkilərə məruz qaldı, üç dəfə heyətini dəyişdi.

Prezident İlham Əliyev: Azərbaycan bizim ümumi Qələbəmizə layiqli töhfə verib. 128 Sovet İttifaqı Qəhrəmanı əslən Azərbaycandandır. Azərbaycanda hərbi texnika istehsal edilirdi. Müəssisələr gecə-gündüz işləyirdi. Qeyd etməliyəm ki, 416-cı diviziya Berlinin götürülməsində də fərqlənib. Kayzer Vilhelm sarayını məhz bu diviziyanın döyüşçüləri tutublar. Azərbaycanlı leytenant Məcidovun rəhbərlik etdiyi bir qrup döyüşçü isə Brandenburq darvazaları üzərinə Qələbə bayrağını sancıb.

Reportajda deyilir ki, bu nadir kadrlarda və fotoşəkillərdə 1945-ci il mayın 2-də Berlinin rəmzi üzərində Qələbə bayrağının sancılması görünür. Həmin hadisələrin iştirakçılarından biri doğma dağ kəndində 37 nəvəsinin və 19 nəticəsinin əhatəsində alay yoldaşlarını salamlayır.

İkinci Dünya müharibəsi veteranı Əliş Xəlilov: Taqanroq diviziyasının salamat qalmış bütün döyüşçülərini salamlayıram və muzeyin açılışı münasibətilə təbrik edirəm.

Prezident İlham Əliyev: Biz ümumi Qələbəmiz uğrunda canlarından keçənlərin müqəddəs xatirəsini ehtiramla yad edirik. Azərbaycanda veteranlar diqqət və qayğı ilə əhatə olunub, biz həmişə faşistlərin qəhrəmanlaşdırılmasının əleyhinə, faşizm üzərində Qələbədə Sovet İttifaqının rolu haqqında tarixi həqiqətin qorunub saxlanması naminə çıxış etmişik və edirik. Əminəm ki, bunu yeni memorialın açılması da göstərəcək. Biz çalışırıq ki, gələcək nəsillər ata və babalarımızın igidliyini unutmasınlar, onlar ümumi Qələbəmizi müqəddəs bir dəyər kimi yad etsinlər, ümumi Qələbəmizə sanballı və həlledici töhfə verənlər haqqında həqiqəti bilsinlər.

Bu memorial kompleksin açılışı münasibətilə veteranları, Rusiya və Azərbaycan xalqlarını təbrik etmək, veteranlara cansağlığı və firavanlıq arzu etmək istəyirəm.

Reportajda deyilir: Ləpirçilər Mius cəbhəsində həlak olmuş azərbaycanlıları hələ də tapırlar. Bu xiyaban burada bizim günlərdə yaranıb. Hər bir ağacın altında müəyyən edilməsi mümkün olmuş adlar yazılmış lövhəciklər var.

Arsenti Yevterev də artıq naməlum əsgər sayılmır. Onun yaxınları cəbhə xətti doğma xutora yaxınlaşanda bu ailə ilə son görüş barədə bir-birinə xatirələr söyləyirlər.

Arsenti Yevterevin nəvəsi Nataliya Qolovaç: O, uşaqlarını, həyat yoldaşını öpdü, balaca oğlunu qucağında bir qədər saxladı, ağlayaraq getdi.

Bir müddət Mius cəbhəsi barədə bilirdilər, amma susurdular. Həqiqəti söyləmək münasib hesab edilmirdi. İtkilər çox olub...

Reportajda bildirilir ki, muzey kompleksində həm veteranların ailə arxivlərindən, həm də döyüş meydanından toplanan minlərlə artefakt nümayiş olunur. Muzeyin yaradılması və fəaliyyətində ən müasir texnologiyaların tətbiqinə geniş yer verilib.

# İndoneziya saytları Azərbaycanın Birinci vitse-prezidenti haqqında məqalələr yayıb

*İndoneziyanın saytları Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın fəaliyyətindən bəhs edən məqalələr yayıb. "Asean Youth", "Telusur", "Gprioryti", "Minanews" saytlarında dərc olunmuş "Vətəninə və xalqına xidmət Birinci vitse-prezident Mehriban Əliyevanın həyat amalıdır", "Mehriban Əliyevanın fəaliyyətinin əsasında xalqa məhəbbət dayanır", "Vətənini və xalqını sevən Mehriban Əliyeva", "Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva" adlı məqalələrdə qeyd olunur ki, ölkəsinin inkişafına xidmət, sosial məsələlərin həlli, şəfqət və mənəviyyat ideyalarına sədaqət, ehtiyacı olanlara yardım Mehriban Əliyevanın həyat fəlsəfəsinin əsasını təşkil edir. Vətənini və xalqını böyük məhəbbətlə sevən Mehriban Əliyeva Prezident İlham Əliyevlə çiyin-çiyinə dayanaraq Azərbaycanın tərəqqisinə mühüm töhfələr verir.*




AZƏRTAC-ın "Vətəninə və xalqına xidmət Birinci vitse-prezident Mehriban Əliyevanın həyat amalıdır" adlı məqaləsinə istinadla dərc olunan yazılarda uzun müddətdir Heydər Əliyev Fonduna rəhbərlik edən Mehriban Əliyevanın UNESCO və ICESCO kimi beynəlxalq humanitar təşkilatların xoşməramlı səfiri olaraq dünya mədəni irsinin qorunması, Azərbaycan mədəniyyətinin beynəlxalq miqyasda tanıdılması işinə töhfələrindən bəhs edilir. Qeyd olunur ki, məhz onun səyləri nəticəsində UNESCO Dünya İrs Komitəsinin 43-cü sessiyası 2019-cu ilin iyulunda Azərbaycanda keçirilib və burada beynəlxalq əhəmiyyətli qərarlar qəbul edilib.




Məqalələrdə vurğulanır ki, Mehriban Əliyeva Birinci vitse-prezident vəzifəsində əsas diqqəti sosial məsələlərə, əhalinin aztəminatlı təbəqəsinin problemlərinin həllinə yönəldib. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində qaçqın və məcburi köçkünə çevrilmiş 300 mindən çox insanın həyat şəraiti qısa müddətdə yaxşılaşdırılıb. Bir il ərzində beş mindən çox məcburi köçkün ailəsi yeni mənzillərə köçürülüb. Ermənistan ordusunun cəbhə xəttində törətdiyi iğtişaşlar nəticəsində yaralanan azərbaycanlı əsgər və zabitlərin müalicəsi təşkil edilib.




Yazılarda Mehriban Əliyevanın rəhbərliyi ilə Azərbaycanda COVID-19 pandemiyasına qarşı həyata keçirilən tədbirlər, Heydər Əliyev Fondunun dəstəyi ilə modul tipli xəstəxanaların istifadəyə verilməsi barədə məlumatlara da geniş yer verilib.




Azərbaycanın Birinci vitse-prezidentinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması sahəsində müstəsna xidmətlərindən bəhs edən məqalələrdə, eyni zamanda, bu məqsədlə Heydər Əliyev Fondunun təşəbbüsü ilə müxtəlif ölkələrdə təşkil edilən tədbirlər barədə də məlumat əksini tapıb.

Məhz çoxşaxəli və yorulmaz fəaliyyətinə görə Mehriban Əliyevanın bir sıra beynəlxalq mükafatlara layiq görüldüyü diqqətə çatdırılır. Vurğulanır ki, Azərbaycanın Birinci vitse-prezidentinin ən böyük mükafatı isə xalqının ona olan məhəbbəti və hörmətidir.

Qeyd edək ki, Birinci vitse-prezident Mehriban Əliyevanın fəaliyyəti barədə məqalələrAZƏRTAC-a istinadla Çinin "China Daily" qəzeti, Avropa İttifaqının "EU Politics" portalı, Avropa Xəbər Agentliyi, Qazaxıstanın, Rumıniyanın, Moldovanın, Bolqarıstanın, Xorvatiyanın, Yunanıstanın, Rusiyanın, Qırğızıstanın, Özbəkistanın, Yaxın Şərq və Şimali Afrika ölkələrinin kütləvi informasiya vasitələri tərəfindən də yayılıb.

# İtaliyanın "Eurasianews" xəbər agentliyi Birinci vitse-prezident Mehriban Əliyeva haqqında məqalə yayıb

İtaliyanın "Eurasianews" xəbər agentliyi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva haqqında məqalə yayıb. Məqalədə Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətindən, xeyirxah əməllərindən, sivilizasiyalararası dialoqa töhfələrindən, Azərbaycanın dünyada tanıdılması istiqamətində gördüyü işlərdən bəhs edilir.




AZƏRTAC-ın "Vətəninə və xalqına xidmət Birinci vitse-prezident Mehriban Əliyevanın həyat amalıdır" sərlövhəli məqaləsi əsasında hazırlanan yazıda xüsusilə oxucuların diqqəti Mehriban Əliyevanın UNESCO-nun və ICESCO-nun xoşməramlı səfiri kimi dünya mədəni irsinin qorunması, mədəniyyətlərarası dialoqun, multikultural dəyərlərin təşviqi işinə verdiyi töhfələrə cəlb olunur. Vurğulanır ki, Birinci vitse-prezidentin fəaliyyəti təkcə öz ölkəsinin maddi və mənəvi mədəni irsinin təbliğinə deyil, eyni zamanda, dünyada sülh, sabitlik, sivilizasiyalararası dialoq, multikulturalizm kimi bəşəri ideyaların reallaşdırılmasına, bu sahələrdə səylərin birləşdirilməsinə yönəlib.

Məqalədə oxuculara Mehriban Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsində gördüyü işlər də diqqətə çatdırılır. Bildirilir ki, onun fəaliyyətində əhalinin həssas təbəqələrinin, o cümlədən məcburi köçkünlərin problemlərinin həlli xüsusi yer tutur. O, Birinci vitse-prezident kimi ilk müşavirəsini qaçqın və məcburi köçkün ailələrinə həsr edib. Bundan başqa, Mehriban Əliyeva Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə yaralanan hərbçilərə qayğı göstərir. Onun təşəbbüsü ilə ölkədə təhsil, səhiyyə, mədəniyyət, idman sahələrində irimiqyaslı layihələr icra edilir.

# Misirin informasiya agentliyi Ermənistanın törətdiyi təxribatlardan yazıb

Misirin "Asiyaelyom" informasiya agentliyinin saytında baş redaktor Əbubəkr Əl Məcdin Ermənistanın Azərbaycanla sərhəd bölgələrində törətdiyi təxribatdan bəhs edən "Erməni terrorizmi Azərbaycanın təhlükəsizliyini təhdid edir" sərlövhəli məqalə dərc edilib.




Məqalədə AZƏRTAC-a istinadla avqustun 23-də cəbhənin Goranboy rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinin diversiya-kəşfiyyat qrupunun komandiri, baş leytenant Qurgen Alaverdyanın Azərbaycan Ordusu tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində müəyyən edilərək saxlanıldığı qeyd olunub. Bildirilib ki, erməni zabitinin Ermənistan Silahlı Qüvvələrinin apardığı təcavüzkar müharibələr nəticəsində işğal edilmiş Kəlbəcər rayonu ərazisində qanunsuz olaraq yaradılmış silahlı birləşmələrin tərkibində iştirak edərək Azərbaycan Respublikasının hərbi qulluqçularına, müəssisələrə, idarələrə, təşkilatlara və ya ayrı-ayrı şəxslərə basqın etməsinə, habelə onlara qarşı zorakılıq hərəkətləri etməsinə, insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsinə yönələn hərəkətlər törətməsinə, eləcə də, qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini və döyüş sursatı əldə edib saxlaması, daşıması və gəzdirməsinə, habelə Ermənistan Respublikası xüsusi xidmət orqanlarının tapşırığı ilə 2020-ci il avqustun 23-də ölkəmizin təhlükəsizliyi zərərinə istifadə olunması məqsədilə dövlət sirri təşkil edən məlumatları toplamaq və Ermənistan Respublikasına ötürmək məqsədilə casusluq etməklə dövlət sərhədini qanunsuz olaraq keçməsinə əsaslı şübhələr müəyyənləşdirilib.

Daha sonra qeyd olunub ki, Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistan rəhbərliyinin bolşeviklərə xas formada silahlı birləşmələr yaratmaq, bu birləşmələrdən öz çirkin məqsədləri üçün, o cümlədən ölkədaxili məsələlərdə istifadə etmək istədiyini bildirib. O, eyni zamanda, Ermənistanın müxtəlif ölkələrdən olan muzdluları ön xətdə yerləşdirdiyini, onlar öləndə isə bu faktları gizlətdiyini də bəyan edib.

Məqalədə diqqətə çatdırılıb ki, Azərbaycan rəsmisi Tovuz hadisələrinin Ermənistan silahlı qüvvələrinin sərhəd boyunca törətdiyi hərbi avantüra və Azərbaycan silahlı qüvvələrinin rəşadətli cavabları çərçivəsində onların o xətti şəxsi heyətlə komplektləşdirə bilmədiyini, ona görə də Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ bölgəsindən şəxsi heyəti, həmçinin Yaxın Şərq ölkələrindən olan muzdlu insanları ön xətdə yerləşdirməyə çalışdığını vurğulayıb. Prezidentin köməkçisi onu da qeyd edib ki, Ermənistan Suriyada münaqişədə iştirak edir, həmin ölkədə şəxsi heyəti var. Bundan başqa, Ermənistan Suriyadan silahların alınması ilə bağlı "qara ticarət"lə məşğuldur.

**Avqustun 31-də Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev ekologiya, sudan səmərəli istifadə və səhiyyə istiqamətində fəaliyyət göstərən 41 QHT-nin sədri ilə görüş keçirib. Bu barədə AZƏRTAC-a Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası Katibliyinin mətbuat xidmətindən məlumat verilib.**



# Prezidentin köməkçisi ekologiya, sudan səmərəli istifadə və səhiyyə istiqamətində fəaliyyət göstərən QHT-lərlə görüşüb






Görüşü giriş sözü ilə açan Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyev bildirib ki, QHT-hökumət dialoqu çərçivəsində təşkil edilən 4-cü görüş ekologiya, sudan səmərəli istifadə və səhiyyə istiqamətində fəaliyyət göstərən ictimai təşkilatlarladır. Bu sahəni əhatə edən mövzular şuranın hər il elan etdiyi qrant müsabiqəsində xüsusi çəkiyə malikdir və indiyədək yüzlərlə QHT dövlətin maliyyə dəstəyindən faydalanıb. Azay Quliyev Prezident İlham Əliyevin ictimai nəzarətin gücləndirilməsinin vacibliyi ilə bağlı verdiyi tapşırıqlar sırasında su ehtiyatlarının qiymətləndirilməsinin də olduğunu nəzərə alaraq Prezidentin köməkçisi Hikmət Hacıyevin sudan səmərəli istifadə, ətraf mühitin mühafizəsi və səhiyyə sahəsində fəaliyyət göstərən QHT-lərlə görüşünün xüsusi önəm daşıdığını deyib.

Prezidentin köməkçisi Hikmət Hacıyev bugünkü görüşün əhəmiyyətinə toxunaraq ekologiya, sudan səmərəli istifadə və səhiyyə istiqamətində fəaliyyət göstərən QHT rəhbərlərinin prioritet hesab etdiyi fikir və ideyalarını dinləmək və gələcək əməkdaşlıq perspektivlərini müzakirə etmək istədiyini bildirib. O deyib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılmasına, yeni yaşıllıq zolaqlarının, meşə massivlərinin salınmasına xüsusi diqqət göstərilir. Bunun nəticəsidir ki, bir sıra milli parklar yaradılıb, yeni meşə zolaqları salınıb, Bakının və Abşeronun ekoloji vəziyyətində müsbət yeniliklər baş verib, əhalinin içməli su ilə təchizatı, ətraf mühitin mühafizəsi, bioloji müxtəlifliyin qorunmasına diqqət artırılıb, eyni zamanda, Xəzərin ekoloji vəziyyətinin yaxşılaşdırılmasına yönəldilən tədbirlər uğurla həyata keçirilib.

Hökumətin ekologiya və su təsərrüfatı sahəsində fəaliyyət göstərən QHT-lərlə yaxından əməkdaşlığa xüsusi əhəmiyyət verdiyini deyən Hikmət Hacıyev xüsusi olaraq vurğulayıb ki, 2020-ci il iyulun 23-də su təsərrüfatının vəziyyətinə həsr olunan onlayn müşavirədə Prezident İlham Əliyev ictimai nəzarətin həyata keçirilməsində QHT-ləri fəal olmağa çağırıb: "Cənab Prezident bildirdi ki, su ehtiyatlarımızın qiymətləndirilməsində və su ehtiyatlarını artırma ehtimalının dəyərləndirilməsində və bütün digər işlərdə alimlər mütləq iştirak etməlidirlər. Bu prosesə qeyri-hökumət təşkilatları cəlb edilməlidir. Dövlət qurumlarının görə bilmədiyi məsələləri onlar diqqətə çatdıracaqlar. Prezidentin bu çağırışı hesab edirəm ki, QHT-lərin fəaliyyəti üçün böyük stimuldur".

Prezidentin köməkçisi Azərbaycanda ətraf mühitin mühafizəsi sahəsinə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun mühüm töhfələr verdiyini vurğulayıb. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2019-cu ildə İmadəddin Nəsiminin yubileyinə həsr olunan aksiyada ölkə üzrə bir gündə 650 min ağacın əkilməsi ölkəmizin ekoloji durumuna çox müsbət təsir göstərib. Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə ekoloji mühitin sağlamlaşdırılmasına, yaşıllıqların artırılmasına hesablanan layihələr də əhəmiyyəti ilə seçilir.

Hikmət Hacıyev müxtəlif QHT-lərin ətraf mühitin mühafizəsi sahəsində həyata keçirdiyi layihələrin, xüsusilə maarifçilik işləri insanların ətraf mühitə münasibətini müsbətə doğru xeyli dəyişdiyini qeyd edib.

Prezidentin köməkçisi region üçün ciddi təhlükə mənbəyinə çevrilən "Metsamor" AES-dən Ermənistanın həm də radioaktiv maddələrin qaçaqmalçılığı üçün istifadə etdiyini bildirib. O, ətraf mühitin mühafizəsi istiqamətində fəaliyyət göstərən QHT-ləri beynəlxalq ictimaiyyətin diqqətini "Çernobıl" Atom Elektrik Stansiyasında istifadə olunan texnologiya əsasında inşa edilən "Metsamor" AES-in yaratdığı təhlükəyə yönəltməyə çağırıb.

Hikmət Hacıyev Ermənistanın ölkəmizə qarşı ekoloji terrorizm və onun tərkib hissəsi olaraq "su terroru" siyasəti apardığını və Avropa Şurası Parlament Assambleyasının 2016-cı ildə "Azərbaycanın sərhəd rayonlarının sakinlərinin qəsdən sudan məhrum edilməsi" haqqında xüsusi qətnamə qəbul etdiyini deyib. O, Ermənistanın işğal etdiyi ərazimizdə yerləşən Sərsəng su anbarından Azərbaycan vətəndaşlarının su təminatının, kənd təsərrüfatı fəaliyyətinin pozulması, ərazinin biomüxtəlifliyinin məhv olması kimi zərərli və təhlükəli məqsədlər üçün istifadə etdiyini qeyd edib.

Daha sonra Hikmət Hacıyev bildirib ki, Azərbaycan əhalisinin sağlamlığının qorunması üçün görülən işlərə və bu sahədə yaradılan müasir infrastruktura görə də seçilir. COVID-19 pandemiyası ilə mübarizədə hökumətin gördüyü təsirli tədbirlər öz nəticəsini verdi və biz pandemiyanı tam nəzarətdə saxlamağa nail olduq. Pandemiya ilə mübarizədə, maarifləndirmə işlərində və ümummilli həmrəyliyin təmin olunmasında QHT-lərin fəal iştirakı təqdir olunur və bu fəallıq bundan sonra da davam etdirilməlidir.

Hikmət Hacıyev Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərinin vəhşicəsinə və qanunsuz istismarı nəticəsində ekoloji tarazlığın kobud şəkildə pozularaq təhlükəli həddə çatdığını bildirib. Prezidentin köməkçisi QHT-lərin dünyanın nüfuzlu beynəlxalq təşkilatlarını Ermənistanın Azərbaycana qarşı apardığı ekoloji terrorun fəsadları barədə davamlı və sistemli şəkildə məlumatlandırmasının, işğalçı ölkədən beynəlxalq təşkilat və məhkəmələrə müraciət etməsinin zəruri olduğunu qeyd edib.

Prezidentin köməkçisi dövlətin QHT-lərdən çalışdıqları istiqamət üzrə ictimai nəzarətin həyata keçirilməsində yaxından iştirak etmək, əhalini ətraf mühitin qorunmasında fəal iştiraka, habelə sudan səmərəli istifadə etməyə təşviq edən maarifləndirmə kampaniyaları təşkil etmək, innovativ ideya və təkliflərlə çıxış etmək, sudan səmərəli istifadə ilə bağlı mövcud olan problemləri öyrənmək üçün araşdırmalar aparmaq, əsaslandırılmış təkliflər vermək, dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində yaxından iştirak etmək, beynəlxalq ekoloji QHT hərəkatlarında və şəbəkələrində təmsil olunmaq, beynəlxalq ekoloji kampaniyalarda (Ətraf Mühit Günü, Dünya Yer Günü, Dəniz Günü, Dünya Su Günü və s.) Azərbaycan vətəndaş cəmiyyətinin dəstəyini ifadə etmək kimi gözləntilərinin olduğunu deyib.

Görüşdə IDEA - Ətraf Mühitin Mühafizəsi naminə Beynəlxalq Dialoq İctimai Birliyinin icraçı direktoru Surxay Şükürov, "EkoSfera" Sosial- Ekoloji Mərkəzinin sədri Firuzə Sultanzadə, "Qafqaz" Regional Ekoloji Mərkəzin sədri Mələk Şükürova, Sağlam İnkişaf və Maarifləndirmə İctimai Birliyinin sədri Anar Xəlilov, "Ekoleks" Ekoloji Hüquq Mərkəzi İctimai Birliyinin icraçı direktoru Samir İsayev, "Ekoloji Tarazlıq" İctimai Birliyinin icraçı direktoru Aytən Poladova, "Sağlamlığa Xidmət" İctimai Birliyinin icraçı direktoru Pərvanə Vəliyeva, "Sudan İstifadə sahəsində Mütəxəssislər" İctimai Birliyinin sədri Ramiz Məmmədov, "Sağlamlığın Qorunması" İctimai Birliyinin sədri Yazgül Abdıyeva, "Ruzgar" Ekoloji İctimai Birliyinin sədri İslam Mustafayev, Milli Ekoloji Proqnozlaşdırma Mərkəzinin sədri Telman Zeynalov, "Alyans" Canlı Aləmin Mühafizəsi İctimai Birliyinin sədri Mənsurə Rəsulzadə, "Biosfer" İctimai Birliyinin sədri Qorxmaz İbrahimli, "Eko Aləm" İctimai Birliyinin sədri Sevil Yüzbaşeva, "Eko-TES" ekoloji tədqiqatlar və maarifçilik İctimai Birliyinin sədri Çingiz Nəzərov, "Sağlam Həyata Doğru" Ekoloji İctimai Birliyinin sədri Sadiq Həsənov, "Ana Kür" ekoloji problemlərin öyrənilməsinə kömək İctimai Birliyinin sədri Rüstəm Məlikov, "Aran" Ekoloji Maarifləndirmə İctimai Birliyinin sədri Nəsirəddin Kərəmov, "Ekoloji İnformasiya" İctimai Birliyinin sədri Musa Muradlı, "Şəfəq" Ekoturizm İctimai Birliyinin sədri Vamiq Babayev, "Ekologiyanın Qorunmasına Kömək" İctimai Birliyinin sədri Sadıq Sadıqov, "Ekoloji Maarifçilik və Monitorinq" İctimai Birliyinin sədri Qəmzə Yusubova, "Sosial-İqtisadi və Ekoloji Tədqiqatlar Mərkəzi" İctimai Birliyinin sədri Ramiz İsgəndərov, "Sosial - İqtisadi və Ekoloji İnkişaf" İctimai Birliyinin sədri Rahilə Mehtiyeva, "İnkişafa Doğru Qadın Təşəbbüsü" İctimai Birliyinin sədri Ziba Nəbiyeva, "Leykozlu Uşaqlara Dəstək" İctimai Birliyinin icraçı direktoru Emin Nəbili, "Hemofiliyalı Xəstələr" İctimai Birliyinin sədri Ayaz Hüseynov, "Uzunömürlülər Diyarı" ekologiya və infrastrukturun bərpası İctimai Birliyinin sədri Nazim Ağayev, "Yaşıl Dünya" Ekoloji Maarifləndirmə İctimai Birliyinin sədri Elman Cəfərli, "Pediatrik Kardiologiya və Revmatologiya" İctimai Birliyinin sədri Sveta Rəfiyeva, "Yoluxucu Xəstəliklərlə Mübarizə" İctimai Birliyinin sədri Fikrət Xəlilov, "Azərbaycan Diabet Liqası" İctimai Birliyinin sədri Yeganə Sultanova, "Autizm" defektoloji və psixoloji yardım mərkəzi İctimai Birliyinin sədri Çiçək Məmmədli, "Autizm Assosiasiyası" İctimai Birliyinin sədri Elnur Məmmədov, "Əczaçılar Klubu" İctimai Birliyinin sədri Şövqi Bunyatov, "Psixososial Reabilitasiya və İnkişaf" İctimai Birliyinin sədri Lamiyə Kərimova, "Rəqəmsal İnkişaf" İctimai Birliyinin sədri Könül Ağayeva, "AIDS-lə Mübarizə" İctimai Birliyinin sədri Nofəl Şərifov, "Səma və Eko" Sosial İqtisadi İnkişafa Yardım İctimai Birliyinin sədri İradə Həsənova, "Qan Donorları Assosiasiyası" İctimai Birliyinin sədri Fuad Əsgərov və "Leykemiya ilə Mübarizə" İctimai Birliyinin sədri Mehriban Bağırova iştirak ediblər.

QHT rəhbərləri çıxışlarında yenicə başlayan QHT-hökumət dialoquna və bugünkü görüşə görə Hikmət Hacıyevə təşəkkürlərini çatdırıblar. QHT rəhbərləri fəaliyyət göstərdikləri sahədə mövcud vəziyyət və problemlərin həlli yolu ilə bağlı fikir və təkliflərini bildiriblər.

Yekunda çıxış edən Prezidentin köməkçisi Hikmət Hacıyev QHT-lərin irəli sürdüyü təkliflərin araşdırılacağını və əsaslandırılmış hissəsinin nəzərə alınacağını, o cümlədən dövlət qurumları ilə QHT-lərin birgə əməkdaşlıq imkanlarının genişləndirilməsi, ictimai nəzarətin gücləndirilməsi məqsədilə müvafiq addımların atılacağını qeyd edib.

Məlumat üçün qeyd edək ki, Prezidentin köməkçisi Hikmət Hacıyevin QHT-lərlə görüşü davam edəcək.

# Vüqar Rəhimzadə: "Qətiyyətli addımlar, vətəndaş məsuliyyəti daha tez zamanda normal həyata qayıtmağa əsas yaradır"



***"Azərbaycanın koronavirus infeksiyasına qarşı mübarizədə tətbiq etdiyi təcrübə dünyanın diqqətindədir və əksər dövlətlər bundan faydalanırlar. Ölkəmizin ilk gündən Ümumdünya Səhiyyə Təşkilatı ilə əməkdaşlığı, atılacaq addımların müzakirəsi və sair kimi tədbirlər bugünkü uğurlu nəticələrdə mühüm rol oynayır. Özünütəcrid COVID-19-la mübarizədə qələbənin əsas şərti kimi irəli sürüldü, sərt karantin rejiminin tətbiqi şəraitində insanların ehtiyac duyulmadığı təqdirdə evdən çıxmamalarına qadağalar qoyuldu.***

Əsas məqsəd insanların sağlamlığının təminatı, yoluxmanın coğrafiyasının genişlənməməsi idi. Mübarizənin birinci mərhələsini uğurla başa vuran Azərbaycan tətbiq olunan təcrübənin paylaşılması üçün dünyaya ünvanladığı birlik, həmrəylik çağırışlarını təşəbbüsçüsü olduğu Zirvə görüşlərinin keçirilməsi ilə reallaşdırdı. Türk Şurasının, Qoşulmama Hərəkatının Zirvə görüşləri, Azərbaycanın təşəbbüsü ilə BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi bir daha bu reallığı ortaya qoydu ki, qlobal problemlə qlobal səviyyədə mübarizənin aparılması üçün səylərin birləşdirilməsinə böyük ehtiyac var. Həmçinin bu bəla xəstəliklə bağlı olduğu üçün hər bir ölkənin səhiyyə sisteminin hazırkı durumunun belə vəziyyətlərə hazır olub-olmadığı özünü nümayiş etdirdi. Dövlətimizin başçısı İlham Əliyev avqustun 31-də Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalının açılışında videoformatda iştirakı zamanı bir daha ölkəmizin pandemiyaya qarşı mübarizə təcrübəsindən bəhs edərək bildirmişdir ki, Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanda bu sahədə görülən işlərə çox yüksək qiymət vermiş, Azərbaycanı nümunəvi ölkə adlandırmışdır. Görülmüş işlər, bu sahəyə ayrılan dövlət vəsaiti, səfərbərlik işləri, xəstəxanaların, laboratoriyaların inşası, sosial proqramların həyata keçirilməsi, bütün bunlar mübarizədə əsas rol oynamışdır. Prezident İlham Əliyev, həmçinin diqqətə çatdırmışdır ki, birgə səylərlə COVID-19-un nəzarətdə saxlanmasını təmin edəcəyik". Bu fikirləri SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə bildirib.

V.Rəhimzadə qeyd edib ki, COVID-19-la mübarizədə səhiyyə sisteminin maddi-texniki bazası xüsusi rol oynayır. Hazırda koronavirus xəstələri üçün 46 xəstəxana fəaliyyət göstərir. Bu xəstəxanaların 41-i son 17 ildə inşa edilib. Məhz regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrası nəticəsində bütün bölgələrimizdə, şəhərlərimizdə müasir tibb ocaqları yaradılıb. Dövlətimizin başçısı İlham Əliyev bildirmişdir ki, təsəvvür etmək çətin deyil ki, əgər biz bu addımı vaxtında atmasaydıq, bu gün hansı problemlərlə üz-üzə qala bilərdik: "Tam məsuliyyətlə deyə bilərəm ki, əgər bu xəstəxanalar vaxtında tikilməsəydi, bu gün biz çox ağır vəziyyətə düşə bilərdik." Nəinki xəstəxanalar tikilib, ən müasir avadanlıqlarla təchiz edilib və bu gün də bu proses davam etdirilir. Laboratoriyaların sayı artıb. Pandemiya başlayanda cəmi 6 laboratoriya fəaliyyət göstərirdi. Ölkəmizdə 900 mindən çox test keçirilib. Adambaşına düşən testlərin sayına görə Azərbaycan dünya miqyasında qabaqcıl yerlərdədir".

"Koronavirus infeksiyası həm ölkə iqtisadiyyatına, həm də insanların sosial vəziyyətinə mənfi təsir göstərmişdir. Dövlətimiz bu təsirin fəsadlarını aradan qaldırmaq üçün kompleks tədbirlər həyata keçirir" söyləyən V.Rəhimzadə qeyd edib ki, sosial dəstək və məşğulluq tədbirləri davamlı olaraq həyata keçirilir. Möhtərəm Prezidentimiz ilk gündən heç bir sosial layihənin təxirə salınmayacağını, iqtisadi islahatların dərinləşdirilməsinin vacibliyini bildirdi. Həmçinin əsas tələblər sırasında iş yerlərinin azaldılmaması yer aldı. Məhz bu çağırışlardan irəli gələrək dövlət bütün kateqoriyadan olan insanları maddi dəstəklə təmin edir. Prezident İlham Əliyev daim vurğulayır ki, insanların rifahı, onların sosial vəziyyəti və əlbəttə ki, sağlamlığı bizim üçün əsas məsələdir: "Pandemiyanın ilk günlərindən demişdim ki, bizim üçün insanların sağlamlığı prioritet məsələdir və biz bütün səylərimizi bu məsələnin həllinə istiqamətləndirdik. Təbii ki, belə olan halda iqtisadi sahədə çətinliklər də labüd idi. Ancaq hesab edirəm ki, başqa ölkələrlə müqayisədə Azərbaycanda iqtisadi sahədə də vəziyyət daha yaxşıdır. Biz yaxşı bilirik ki, bəzi inkişaf etmiş ölkələrdə pandemiya dövründə iqtisadi tənəzzül 10, 15, 20, 25 faiz səviyyəsindədir. O cümlədən Avropanın inkişaf etmiş ölkələrində yüksək səviyyədədir. Ölkəmizdə isə görülmüş tədbirlər nəticəsində 7 ayda iqtisadiyyat cəmi 2,8 faiz aşağı düşüb. Ümumi dünyada mövcud olan mənzərəni nəzərə alsaq, hesab edirəm ki, bu, yaxşı göstəricidir".

Baş redaktor bildirib ki, COVID-19-la mübarizədə sosial məsuliyyət əsas rol oynayır. Dövlətimizin başçısı İlham Əliyev, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva xalqa bütün müraciətlərində bu çağırışı edirlər ki, məsuliyyətli olaq. "Prezident İlham Əliyevin Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalının açılışında videoformatda iştirak zamanı nitqində əsas diqqət göstərdiyi məsələlərdən biri hər kəsin qanun qarşısında eyni məsuliyyəti daşıması oldu. "Əfsuslar olsun ki, bu gün hələ də vəziyyəti dərk etməyənlər, məsuliyyətini itirmiş insanlar mövcuddur və qaydaların kobudcasına pozulması halları vardır" söyləyən möhtərəm Prezidentimiz bildirmişdir ki, belə hallar aşkarlananda təbii ki, cəza tədbirləri də mütləq olmalıdır və tətbiq edilir. Cəza tədbirləri bütün kateqoriyadan olan insanlara tətbiq edilir. Heç bir ayrı-seçkiliyə yol verilməməlidir və verilmir. İctimai vəziyyətinə, ictimai statusuna baxmayaraq, hamı qanun qarşısında bərabərdir.

V.Rəhimzadə qeyd edib ki, karantin rejiminin qaydaları həm özümüz, həm dövlətimiz üçün vacibdir: "Bir tərəfdən bu qaydalara riayət etməklə öz sağlamlığımızı təmin ediriksə, digər tərəfdən, yoluxma hallarının azalması fonunda karantin rejiminin yumşaldılmasına, eyni zamanda, əvvəlki həyata qayıdıb pospandemiya dövrü üçün inkişaf modelinin hazırlanmasına dəstək oluruq. Möhtərəm Prezidentimiz bildirmişdir ki, görülmüş bütün işlər bir məqsədə yönəlib: Bu vəziyyətdən az itkilərlə çıxaq və hesab edirəm ki, biz buna nail oluruq. Həmçinin bu əminlik də ifadə edilir ki, birgə səylər nəticəsində bundan sonra da dövlətin qətiyyətli və düşünülmüş, ədalətli addımları, vətəndaşların məsuliyyəti imkan verəcək ki, biz bu ağır vəziyyətdən az itkilərlə çıxaq və daha tez zamanda normal, adi həyata qayıdaq".

# "Ölkəmizdə İslam dininə aid olan bütün mərasimlər dövlətin diqqətinə olub"



"Azərbaycan hər zaman öz milli-mənəvi və dini dəyərləri ilə sayılıb-seçilən ölkələrdən olub və xüsusilə, müsəlman ölkəsi olaraq öz multikultural siyasəti ilə digər ölkələrə nümunə olub. O cümlədən, ölkəmizdə İslam dininə aid olan bütün mərasimlər dövlətin diqqətinə olub, qayğısı ilə əhatələnib". Bu fikirləri "SƏS" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev pandemiya zamanı Aşura mərasiminin keçirilməsinə qoyulmuş məhdudiyyəti şərh edərkən deyib.

Baş redaktor xatırladıb ki, zamanında islami dəyərlərə ən böyük önəmi Ulu Öndər Heydər Əliyev verib və biz bu dahi şəxsiyyətin Həcc ziyarətinə qatılmasını, habelə Azərbaycanda Aşura mərasimlərindəki iştirakını, eyni zamanda, onun göstərişi ilə məscid və s. ibadət komplekslərinin bərpasını, tikintisini göstərə bilərik.

Eləcə də, bu gün Prezident İlham Əliyev də bu mühüm amilləri davamlı olaraq diqqətində saxlayır, inanclı vətəndaşların ibadət etmələri, dini mərasimlərdə iştiraklarını rahat, təhlükəsiz şəkildə həyata keçirmələri üçün müvafiq qərarlarını verir, addımlarını atır: "Əbəs deyil ki, möhtərəm Prezidentimiz ailəsi ilə Həcc ziyarətində də olub və Azərbaycanımızın firavan olması, gücünün, qüdrətinin artması, xalqımızın rifahı üçün Allaha dualar edib. Bu, həm də onu göstərir ki, dövlətimiz daim bu kimi məsələlərə ehtiramla yanaşıb".

"Lakin sirr deyil ki, koronavirus pandemiyası və onun dünyaya vurduğu fəsadlarının daha böyük dairəni əhatə etməməsi üçün önləyici tədbirlər reallaşdırılmaqdadır", deyən siyasi ekspert əlavə edib ki, artıq bu günə qədər bir neçə islami mərasimlərə də məhdudiyyətlər qoyulub: "Ramazan və Qurban bayramlarını buna misal gətirə bilərik. Habelə insanların birgə şəkildə camaat namazlarının qılınmasının da müvəqqəti qarşısı alınıb. Cümə günlərində namazlar yalnız fərdi qaydalarda qılınmaqdadır. Məscidlərin fəaliyyətinə bu ətrafda xüsusi nəzarət yaradılıb. Bütün bunlar isə əlbəttə ki, vətəndaşlarımızın sağlamlığı, sanitar-epidemioloji vəziyyətin nəzarətdən çıxmaması üçündür.

Hesab edirəm ki, hazırkı dövrə qədər görülən nəhəng anti-pandemiya kampaniyalarında ortaya qoyulan və əldə edilən uğurlu nəticələri yerə vurmaq haqsızlıq olardı. Çünki dövlətimiz vacib olan bütün addımları atıb və yerdə qalanını vətəndaşlar anlamalı, qoyulan qadağalara riayət etməlidirlər. Eləcə də, inanclı vətəndaşlarımız bu məhdudiyyətləri anlayışla qarşılamalı, dua və ibadətlərini fərdi qaydada həyata keçirməli və əlbəttə ki, bəşəriyyətin tezliklə bu bəladan qurtulmasını Allahdan istəməlidir. Məhz bu cür anlayışlarla, qarşılıqlı addımlarla, həmrəyliklə insanlıq koronavirus təhlükəsindən xilas ola bilər. Əminik ki, məhərrəmlik ayına xas olan müəyyən günlərdə, eləcə də Aşurada da müsəlman bacı və qardaşlarımız, vətəndaşlarımız dövlətin apardığı bu siyasətə öz dəstəklərini nümayiş etdirirlər, bundan sonra da etdirəcəklər".

# Azərbaycan tankçıları sərrast atışla 3 hədəfi məhv etdi

"Beynəlxalq Ordu Oyunları - 2020" yarışları çərçivəsində keçirilən "Tank biatlonu" müsabiqəsində iştirak edən tankçılarımız yarışların növbəti günündə "Fərdi sürücülük" mərhələsində iştirak ediblər. Müdafiə Nazirliyindən SİA-ya verilən məlumatda bildirilir ki, Azərbaycan tankçıları yer aldıqları qrupda Çin, Belarus və Serbiya tankçıları ilə yarışlarda fərdi ustalıqlarını nümayiş etdiriblər. Tankçılarımız müsabiqənin şərtlərinə əsasən sərrast atəşlə 3 hədəfi məhv edib və marşrut üzrə müəyyən edilmiş məsafəni qısa müddətdə keçərək yarımfinal mərhələsinə yüksəliblər.



# Berlində etiraz aksiyaları zamanı 30-dan çox polis əməkdaşı yaralanıb



© Reuters/C. Mang

Berlində etiraz aksiyaları zamanı 30-dan çox polis əməkdaşı yaralanıb. SIA "dw.com" saytına istinadən xəbər verir ki, bu barədə hüquq-mühafizə orqanlarından məlumat verilib. İğtişaşlar zamanı, həmçinin 316 etirazçı saxlanılıb. Ümumilikdə mitinqlərdə təqribən 38 min nəfər iştirak edib. Ən ciddi qarşıdurmalar mərkəzi Unter den Linden küçəsində baş verib. Etirazçılar polisə daş və şüşə parçaları atıb, polis isə gözyaşardıcı qazdan istifadə etməli olub. Mitinqlərin təşkilatçısı Ştutqartdan olan "Querdenken 711" təşkilatıdır. Təşkilat tərəfdarları koronavirusa qarşı tədbirlərin azadlığı məhdudlaşdırdığına inanır və onun ləğvini tələb edirlər.

# Yerli özünüidarəetmə orqanlarının fəaliyyətində daha çox keyfiyyət göstəricilərinə nail olmalıyıq

## *Milli Məclisin deputatı Fatma Yıldırımın yap.org.az-a müsahibəsi*

***- Fatma xanım, bugünlərdə Milli Məclisin Gənclər və idman komitəsinin və Azərbaycan Şəhər, Qəsəbə və Kənd Bələdiyyələri Milli assosiasiyalarının birgə təşkilatçılığı ilə "Yerli özünüidarəetmədə gənclərin rolu" mövzusunda videokonfrans keçirilib. Videokonfransda siz də iştirak etmisiniz. Mövzunun aktuallığı ilə bağlı fikirlərinizi bilmək istərdik...***



- Hər bir ölkənin ictimai-siyasi, sosial-mədəni həyatında gənclər mühüm rola malik əsas quvvələrdən biri hesab olunur. Azərbaycanda gənclər dövlətin diqqət və qayğısını hər zaman öz üzərində hiss edir. Xüsusən də, cənab Prezident İlham Əliyevin təsdiq etdiyi 2015-2025-ci illəri əhatə edən Azərbaycan gənclərinin inkişaf Strategiyası və digər sərəncamlardan irəli gələn tədbirlər müasir gəncliyimizin intellektual, fiziki və mənəvi, bir sözlə hərtərəfli inkişafını təmin etmişdir. Görülmüş çoxsaylı tədbirlər nəticəsində əminliklə deyə bilərik ki, respublikamızda gənclər siyasəti uğurla davam etdirilir.

Ötən dövrlər ərzində əldə olunan mühüm nailiyyətlərdən biri də gənclərin dövlət və yerli özünüidarəetmə orqanlarının işində gənclərin təmsilçilik səviyyəsinin artırılmasıdır. Ölkəmizdə son 3 bələdiyyə seçkilərinin nəticəsində gənclərin üzv olaraq seçilmə statistikasına əsasən 2009-cu ildə 26%, 2014-cü ildə 36%, son seçkilərdə isə 1606 bələdiyyə üzrə 15000-ə yaxın bələdiyyə üzvündən 40% gənclərin seçilməsi doğrudan da böyük uğurlarımızdan sayılır. Lakin, əldə olunan bu kəmiyyətdəki irəliləyişlərlə bərabər çalışmalıyıq ki, bələdiyyələrin fəaliyyətində keyfiyyət göstəricilərinə də nail olaq.

Tədbirdə bu istiqamətdə Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya, həmçinin Elm və təhsil komitələrinin üzvü kimi təkliflərimi səsləndirdim.

***- Həmin təkliflər nədən ibarətdir?***

- Bildiyimiz kimi, "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsi yerli ekoloji proqramlardan bəhs edir. Gənclər belə proqramların hazırlanması və qəbul edilməsində təşəbbüskarlıq və fəallıq göstərməlidir. Son bələdiyyə seçkilərində seçilmiş gənclər yeni ideyalarını qanunvericilikdə nəzərdə tutulduğu qaydada əsaslandırmaqla üzvü olduğu bələdiyyənin və rayon icra hakimiyyətlərində fəaliyyət göstərən müvafiq komissiyaların rəhbərliyinə bildirməlidirlər.

Məlumdur ki, bir çox ölkələrdə, o cümlədən Azərbaycanda su ehtiyatlarından səmərəli istifadə əhalinin və təsərrüfat subyektlərinin tələbatına uyğun olaraq təmin edilməsi aktual və həlli vacib olan məsələlərdən biridir. Yaranmış vəziyyət üzv olduğum parlamentin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində deputatların və "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyinin iştirakı ilə müzakirə edilib.

Bilirsiniz ki, qeyd etdiyimiz məsələ ilə bağlı hörmətli Prezidentimiz cənab İlham Əliyev iyul ayında aidiyyatı qurumların rəhbərlərinin iştirakı ilə müşavirə keçirmiş, mövcud vəziyyət hərtərəfli təhlil edilmişdir. Müzakirələrin nəticəsi olaraq olaraq "Tədbirlər planı" təsdiq edilmiş və əlavə tədbirlər görülməsi üçün bir sıra müvafiq sərəncamlar verilmişdir. Hesab edirəm ki, bələdiyyələr də bu prosesdən kənarda qalmamalı, qanunvericiliklə müəyyən edilmiş vəzifələrin yerinə yetirməlidirlər.

Bələdiyyələrin su təsərrüfatı haqqında Azərbaycan Respublikasının Qanunundan irəli gələrək bələdiyyələrin içməli su və suvarma suyunun istifadəsində iştirakı üçün geniş imkanlar vardır. Belə ki, əhali arasında suvarma və içməli sudan istfadə olunmasına dair təbliğat işlərinin aparılması, suvarma sularının istifadəçiləri arasında düzgün və növbəliliklə bölünməsinin, həmçinin sahələr arası su arxlarının təmizlənməsin təşkil edilməsi bələdiyyələrin əsas vəzifələrindən biridir. Qəsəbə və kəndlərdə mövcud bulaq və kəhrizlərin mənbəyinin ətrafının təmizlənməsi və dezinfeksiya işlərinin aparılması, əhaliyə verilən içməli su borularının təmiri və yeniləri ilə əvəz edilməsi işlərini bələdiyyələr həyata keçirməklə sakinlərin etimadını daha da qazanmış olardı.

Yerli ekoloji proqramlar tərtib edərkən bələdiyyə ərazisinin abadlaşdırılması, məişət tullantılarının yığılması və digər sahələr üzrə dövlətin həyata keçirdiyi tədbirlərdən kənar olaraq yerli layihələrin tərtibinə üstünlük verilməlidir.

***- Sizcə, bələdiyyələr öz potensialından, gənclərin imkanlarından səmərəli istifadə edə bilirmi? Yerli özünüidarəetmə orqanları inkişaf üçün daha hansı addımlar ata bilərlər?***

- Çox arzu edərdim ki, qanunvericilikdə nəzərdə tutulan təhsil və məktəbəqədər tərbiyə müəssisələri yaradılsın. Bilirsiniz ki, ölkəmizdə xeyli sayda özəl uşaq baxçaları yaradılmışdır. Maliyyə imkanı yaxşı olan bələdiyyələrdə belə sosial yönümlü təşəbbüslərin irəli sürülməsi çox təqdirəlayiq hal olar.

Bu gün gənc bələdiyyə üzvlərinin əksər çoxluğunu qadın üzvlər təşkil edir. Ölkəmizdə Birinci vitse-prezidentimiz, hörmətli Mehriban xanım Əliyeva geniş miqyaslı gender siyasətinin reallaşmasına çox böyük dəstək verir. Hesab edirəm ki, həmin siyasətə uyğun olaraq yerli özünüidarəetmədə həm gənclərin, həm də qadınların rolunun artırılması prosesi paralel davam etdirilməlidir.

Artıq bir sıra bələdiyyələrdə gender komissiyalarının yaradılması istiqamətində tədbirlər görülür. Bir neçə bələdiyyə isə pilot olaraq müəyyən edilmişdir. 93 saylı Bərdə şəhər seçki dairəsinin deputatı olaraq mənim üçün çox xoşdur ki, Bərdə şəhər bələdiyyəsi də pilot olaraq müəyyən edilib və bələdiyyəyə həm texniki, həm də metodiki kömək göstərilir. Yaradılacaq həmin komissiyanın işində və digər tədbirlərdə çalışacağam ki, müəyyən dəstək göstərək və tövsiyyələrimimzi çatdıraq.

Düzdür, ola bilsin ki, istər yerli ekoloji, istərsə də digər sahələrdə təşəbbüslər maliyyə çətinliyi, kadr potensialı və ya digər səbəblərdən bələdiyyə rəhbərliyi tərəfindən ilkin olaraq dəstəklənməyə bilər. Lakin, gənclər ruhdan düşməməli, öz ərazilərində vətəndaşların sosial sifarişlərindən irəli gələn təkliflərinin həlli yollarını daha da əsaslandırmalıdır. Yaxşı olar ki, beynəlxalq təcrübədən yararlanaraq, yerli və xarici donorlara layihələrlə müraciət edilsin. Bir sözlə, potensial yerli imkanları bir daha təhlil eməklə, gənclər öz təşəbbüskarlığını davam etdirməlidir.

Artıq iki ildir ki, bəzi bələdiyyələr dövlət büdcəsindən subvensiya alırlar. Yaxşı olardı ki, dayanıqlı gəlir mənbələrinin yaradılması istiqamətində aidiyyatı qurumlara layihələr təqdim edilsin. Əgər, doğrudan da layihələr qanunvericiliklə müəyyən edilmiş tələblərə cavab verməklə büdcə gəlirlərinin artmasına səbəb olacaqsa yəqin ki, gec-tez həmin layihələr dəstəklənəcəkdir.

Həmçinin, 2020-ci il respublikamızda "Könüllülər ili" elan olunub. Artıq yarım ilini pandemiya dövrünü əhatə edən bu ildə bələdiyyələr könüllülərin iştirakı ilə müəyyən tədbirlər təşkil edə bilərlər. Ərazilərdə olan əhaliyə gənclər qədər yaxın heç kim ola bilməz. Ona görə də vətəndaşlar arasında maarifləndirmə tədbirlərində fəal iştirak etməklə onların məmnunluğunu təmin edən dövlət və bələdiyyə maraqlarını ifadə edən mesajlar çatdırmaq lazımdır.

Bir sözlə, gənclər elə fəallıq göstərməlidir ki, yerli özünüidarəetmədə gənclərin rolunu artırmaqla ölkə bələdiyyələrinin inkişafına nail olmaq lazımdır.

## İlk İsrail təyyarəsi Əbu-Dabiyə enib




ABŞ Prezidentinin müşaviri Cared Kuşnerin də göyərtəsində olduğu ilk İsrail təyyarəsi Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) paytaxtına enib. Beləliklə, BƏƏ və İsrail tarixində birinci kommersiya aviareysi həyata keçirilib. Təyyarənin göyərtəsində Əbu-Dabidə danışıqlar aparacaq İsrail hökumətinin nümayəndə heyəti də var.

AZƏRTAC xəbər verir ki, İsrailin Milli Təhlükəsizlik Şurasının sədri Meyr Ben-Şabbat və ABŞ-ın milli təhlükəsizlik üzrə müşaviri Robert O. Braynın, israilli iş adamları, alimlər və iqtisadçıların daxil olduğu nümayəndə heyətlərini BƏƏ Xarici İşlər Nazirliyinin rəsmiləri qarşılayıblar.

Əbu-Dabidə keçiriləcək danışıqlarda İsrailin Fələstin ərazilərinin ilhaqını dayandırması, Əbu-Dabi və Təl-Əviv arasında diplomatik münasibətlərin qurulması, müxtəlif sahələrdə ikitərəfli əməkdaşlıq məsələləri müzakirə ediləcək.

## "Ermənistan terror dövləti olmaq iddiasından geri çəkilməyib"



"Qarabağ müharibəsi zamanı erməni hərbçiləri, separatçılar Azərbaycan türklərinə qarşı xeyli sayda kütləvi qırğınlar, qətliamlar, soyqırımlar həyata keçirib. Onlardan biri də XX yüzilliyin böyük faciələrindən biri olan Ballıqaya qətliamıdır. Bu faciə Ermənistan silahlı qüvvələrinin bundan əvvəl Xocavəndin Qaradağlı kəndində, Xocalı şəhərində, Kəlbəcərin Ağdaban kəndində Qarabağın azərbaycanlı əhalisini kompakt şəkildə məhv etmək niyyəti ilə törədilmiş silsilə kütləvi qırğın aktlarından biridir. Həmin qətliam zamanı bu ərazidə məskunlaşan insanlar erməni vəhşiliyinin qurbanı oldular. Ballıqaya qətliamı bir obanın, yaşayış məntəqəsinin faciəsidir. Ballıqaya qətliamı zamanı beynəlxaq humanitar hüququn bir sıra əsas tələbləri kobud şəkildə pozuldu. Mülki insanlar birbaşa hədəfə alındı, öldürüldü, azyaşlı uşaqlar, qadınlar və yaşlı insanlar qətlə yetirildi. Baş vermiş qətliam zamanı maldarlıqla məşğul olan mülki şəxslər belə , çobanlar və onların ailə üzvləri etnik mənsubiyyətlərinə görə yaşamaq hüququndan məhrum edildilər". Bunu SİA-ya millət vəkili Anar Məmmədov deyib.

Onun sözlərinə görə, baş vermiş qətliamla bağlı 1992-ci il avqustun 28-də Goranboy Rayon Hərbi Prokurorluğunda cinayət işi başlansa da, aparılan istintaq tədbirləri nəticəsində qətliamda iştirak edən terrorçulardan yalnız bəzilərinin şəxsiyyəti müəyyən edildi: "Azərbaycan Respublikası tərəfindən aidiyyəti beynəlxalq təşkilatlara və o cümlədən Ermənistan Respublikasına cinayətkarların tapılaraq ədalətə təslim edilməsi ilə bağlı müraciət edilməsinə baxmayaraq, bu günə qədər bu amansız cinayətləri törədənlər layiqli cəzalarını almayıblar. Təbii ki, bütün bunlar təsadüfi deyil və ermənilər bu addımları planlı şəkildə atıblar. Bunun arxasında türk düşmənçiliyi ilə yanaşı, "Böyük Ermənistan" ideyası da dayanır. Bu gün bir erməni uşağının beyninə türklərə qarşı nifrət yeridilir, tarixi Azərbaycan torpaqları erməni torpağı kimi qələmə verilir. Bu uşaqlar böyüyüb siyasətçi, hərbçi, jurnalist, idmançı olur və hər yerdə bizə qarşı düşmən mövqedə dayanırlar. Əslində bu xəstə təfəkkür ilk növbədə onların özünə zərbə vurur. Bu gün təcrid olunmuş vəziyyətə düşən Ermənistan yenə də ənənəsinə sadiq qalaraq düşmən mövqedə dayanır, Azərbaycan torpaqlarına iddialarından geri çəkilmir, Dağlıq Qarabağla bağlı danışıqlarda qeyri-konstruktiv mövqe tutaraq "status-kvo"nu uzatmağa çalışırlar. Ermənilərin bu xəstə təfəkkürü Azərbaycana, həmçinin türklərə qarşı olan bir sıra qlobal güclərin işinə də yarayır. Onlar dəfələrlə ermənilərdən bu məqsədlə alət kimi sitifadə ediblər və onlar yenə də istifadə obyekti olaraq qalırlar. Erməni təcavüzünün kökündə məhz bu amillər dayanır".

***Ceyhun Rasimoğlu***

# "Paşinyanın Qarabağa səfərlərinin intensivləşməsi Ermənistanın təcavüzkar siyasətindən əl çəkmək istəmədiyini göstərir"



Nikol Paşinyanın Azərbaycanın işğal edilmiş ərazilərinə, o cümlədən Dağlıq Qarabağa səfərlərinin intensiv xarakter alması Ermənistanın öz təcavüzkar siyasətindən əl çəkmək niyyətində olmadığını, əksinə, rəsmi İrəvanın hərbi əməliyyatların bərpası üçün yeni təxribatlara əl atacağını sübuta yetirir. Ermənistanın baş nazirinin Qarabağa son səfərində işğalçı ordunun və onun nəzarəti altında olan qanunsuz hərbi birləşmələrin obyektlərinə baş çəkməsi bu faşist törəməsinin öz sələflərindən geri qalmadığını sübut edir. Həm bütün bunların, həm də Ermənistandakı ağır iqtisadi böhranın daha da dərinləşdiyi, ölkənin xarici borcunun 8 milyard ABŞ dollarını keçdiyini, ümumi daxili məhsulu 60 faiz, dövlət büdcəsini 2,5 dəfə üstələdiyini, büdcə kəsirinin 200 milyon ABŞ dollarına yaxınlaşdığını nəzərə alsaq, hərbi ritorikanın gücləndirilməsinin əsas səbəblərindən birinin diqqətin daxili problemlərdən yayındırılmasına xidmət etdiyini söyləmək mümkündür.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında siyasi ekspert Elçin Mirzəbəyli deyib.

Siyasi ekspert bildirib ki, Nikol Paşinyanın Qarabağa səfərləri, həmçinin Azərbaycanla sərhəd xəttinin Tovuz istiqamətində təxribat törətməkdə fərqlənmiş erməni hərbçilərini mükafatlandırması, hətta onlardan birinə "Milli qəhrəman" adını təqdim etməsi İyul döyüşlərindən sonra Ermənistan ordusundakı ruh düşkünlüyünü aradan qaldırmağa hesablanıb. Ermənistan hakimiyyətinin "Müdafiə haqqında" qanuna əlavə və dəyişikliklər etməklə, "könüllü hərbi birləşmələr" adı altında orduya muzdluların cəlb olunması üçün hüquqi baza yaratmaq, digər tərəfdən "Repartasiya haqqında" yeni qanunun qəbuluna hazırlaşmaqla nəinki xaricdə yaşayan ermənilərin, hətta sözdə ermənilərlə identik olan digər xalqların nümayəndələrinin, əslində isə terrorçuların, hərbi cinayətkarların ölkəyə gəlişini və Azərbaycanın işğal altında olan ərazilərində məskunlaşdırılmasını asanlaşdırmaq niyyəti də Paşinyan rejiminin Azərbaycana qarşı yeni hücum planı qurduğu barədə ehtimalları daha da gücləndirir.

Elçin Mirzəbəyli qeyd edib ki, Nikol Paşinyanın Qarabağa intensiv səfərlərini şərtləndirən amillərdən biri də onun ailə biznesini genişləndirmək istəyi ilə bağlıdır. Bu səfərlərlə, həmçinin Ermənistanın sabiq rəhbərliyinə və onların Qarabağdakı əlaltılarına təzyiqləri artırmaqla Paşinyan Azərbaycanın işğal olunmuş ərazilərindən qızıl və digər metalların qanunsuz istismarından öz payını götürmək istəyir. Robert Köçəryan, Serj Sarkisyan və digərlərinə edilən hücumların məqsədi heç də iddia olunduğu kimi korrupsiyaya qarşı mübarizə ilə bağlı deyil. Nikol və ətrafı Ermənistanın sabiq hakimiyyətinin əlaltılarının "Sterlite Gold Ltd", "Sirkap Armenian", "Base Metals", "Manex and Valex", "Armenian Copper Programme", FDM "Vallex Group" və Azərbaycan torpaqlarını talamaqla məşğul olan bu kimi digər şirkətlərindəki hissələrini öz əlinə keçirmək üçün bütün inzibati resurslardan istifadə edir.

Bu səbəbdən də təsadüfi deyil ki, Paşinyan Dağlıq Qarabağa səfəri zamanı Ağdərə rayonundakı "BeysMetls" (Base Metals CJSC) şirkətinin dağ-mədən kompleksində də olub.

"Qeyd edim ki, Ermənistanın sabiq prezidenti Serj Sarkisyan da Dağlıq Qarabağa hər səfərində separatçıbaşı Bako Saakyanla birlikdə "BeysMetls"in qanunsuz istismar etdiyi mədənlərə baş çəkməyi unutmurdu və hazırda əlindən alınan ailə biznesinə birbaşa özü nəzarət edirdi. Azərbaycanın işğal altındakı torpaqlarında fəaliyyət göstərən müəssisələr həm də Ermənistan hakimiyyəti üçün büdcə vəsaitlərinin mənimsənilməsi və çirkli pulların yuyulması üçün əlverişli vasitə hesab olunurdular. Bu proses bu gün də estafeti Köçəryan və Sarkisyandan alan Nikol Paşinyan tərəfindən daha böyük acgözlüklə davam etdirilir", - deyə siyasi ekspert bildirib.

# "COVİD-19-la mübarizədə vətəndaşların rolu çox böyükdür"



Azərbaycanda koronavirus (COVİD-19) infeksiyasına qarşı aparılan mübarizə çərçivəsində həyata keçirilən sistemli tədbirlər, vətəndaşların məsuliyyəti və mövcud qaydalara əməl etməsi nəticəsində müsbət nəticələr əldə edilib. Hazırda Azərbaycan yoluxanların və vəfat edən çəxslərin sayının azlığına, habelə yoluxma və sağalma hallarının nisbətinə görə ən yaxşı nəticələr nümayiş etdirən ölkələr sırasındadır. Məsələ ilə bağlı SİA-ya açıqlama verən millət vəkili Azər Badamov bunları deyib

Millət vəkili bildirib ki, COVİD-19 infeksiyası ilə mübarizədə qazandığımız uğurlarda vətəndaşların rolu çox böyükdür: "Çünki infeksiyanın daşıyıcısı və yayıcısı insandır. Əgər insanlar müəyyən olunmuş qaydalarla yaşamağına davam edərsə koronavirusun ölkədə yayılmasını minimumda saxlaya bilərik. Onu da qeyd edim ki, insanlar artıq yeni qaydalara uyğun yaşamasına adaptasiya olur. İctimai nəqliyyatda və qapalı ictimai məkanlarda demək olar ki, hamı tibbi maskadan istifadə edir. Bunu insanlarda sosial məsuliyyət hissinin artması kimi qeyd edə bilərəm. Qaydalara riayət olunmasına nəzarət də gücləndirilmişdir. Müvafiq qurumların əməkdaşları nəzarəti gücləndirmişdir. Bir daha qeyd etmək istəyirəm ki, hamı özünü məsuliyyətli aparsa koronavirusla mübarizəmiz sona qədər uğurlu olacaqdır".

# Qubadlının Ermənistan tərəfindən işğalı ilə bağlı virtual təbliğata start verilildi




Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və "Virtual Qarabağ" İnformasiya - Kommunikasiya Texnologiyaları Gənclər İctimai Birliyi 31 avqust Azərbaycan Respublikasının Qubadlı rayonunun Ermənistan tərəfindən işğalının 27 - ci ildönümü ilə bağlı virtual təbliğat aksiyasına başlayıb.

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyi ilə "Virtual Qarabağ" İnformasiya - Kommunikasiya Texnologiyaları Gənclər İctimai Birliyi tərəfindən hazırlanmış və birliyin rəsmi portalı (www.virtualkarabakh.az), Youtub kanalı (www.youtube.com/virtualkarabakhtv) və rəsmi feysbuk səhfəsində (www.facebook.com/virtualkarabakh/) Qubadlı rayonu və onun işağılının acı nəticələri ilə bağlı məlumatlar, infoqrafikalar, filmlər, digər foto və video materiallar təqdim olunub. Aksiya çərçivəsində gənclər qeyd olunan məlumatlarla tanış ola, eyni zamanda, aktiv şəkildə müxtəlif sosial şəbəkələrdə paylaşa bilərlər.

Aksiya zamanı aşağıdakı həştəqlərdən istifadə olunacaq: #Qubadlı #Gubadli #Qubadli #Qubadlısız27il #27yearswithoutGubadli #Azərbaycan #Qarabağ #Azerbaijan #Karabakh #Azerbaydjan #Karabax #KarabakhConflict #Knowarmenia #StopArmenianAggression #StopArmenianOccupation #ArmenianTerrorists #armenianvandalism #KarabakhNow #armenia #armeniə #OSCE #ARGİN #MYS #AllforKarabakh #KarabakhisAzerbaijan

# Robert Koçaryan: "Amulsar ətrafında baş verənlər dərəbəyliyin nümunəsidir"



Amulsar qızıl yatağı ətrafında yaranmış vəziyyət təkcə mədən sənayesinin inkişafı ilə bağlı deyil, həm də dövlət idarəetmə sisteminin iflasının sübutudur. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu sözləri Ermənistanın ikinci prezidenti Robert Koçaryan bir qrup jurnalistə verdiyi müsahibədə söyləyib. Robert Koçaryana görə, Amulsar mədəninin nə qədər təhlükəli olduğunu bilmir, amma o hesab edir ki, minimal risklər olsa belə, mədən işləməməlidir: "Əgər şirkət işləməməlidirsə, onda belə bir qərarı bir il yarım və ya iki ildir "dağı qoruyan" bir qrup şəxs deyil, dövlət verməlidir. Əlbətdə ki, insanların, ekoloqların emosional vəziyyətini başa düşürəm. Digər tərəfdən, hələ də nə ediləcəyinə qərar verə bilinməməsi dövlətin olmadığını göstərir".

# Vaksinlər ilk növbədə hansı şəxslərdə istifadə olunacaq?




"Vaksinlər xroniki xəstəliyi olan şəxslərdə, 6 ay ilə 5 yaş arasında olan uşaqlarda, həmçinin, yaşı 50-dən çox olan insanlarda peyvənd istifadə olunmalıdır". Bu sözləri SİA-ya özəl açıqlamasında Tibbi Ərazi Bölmələrini
İdarəetmə Birliyinin (TƏBİB) yoluxucu xəstəliklər üzrə işçi qrupun rəhbəri Vasif Əliyev,
Azərbaycanda payız-qış ayları üçün tətbiq ediləcək mövsümi vaksinlərin əsas etibarilə hansı şəxslərdə istifadə edilə
biləcəyi haqda danışarkən deyib. "Ümumiyyətlə, qrip peyvəndləri 6 aylıq uşaqlardan başlayaraq hər bir kəsdə istifadə edilə
bilər. Bildiyimiz kimi qripdən illik ölüm sayı da kifayət qədər çox olduğundan və qrip də koronavirus kimi pnevmaniya yarat-
dığından və ikinci bir infeksiyanın qarşısını almaq üçün mövsümi qrip peyvəndlərindən istifadə oluna bilər. Bu baxımdan, xü-
susilə də, xroniki xəstəlikləri olan, yaşı 50-dən yuxarı olan insanlarda, həmçinin, hamilələrdə qrip peyvəndindən istifadə olu-
na bilər". Onun sözlərinə görə, bu, mövsümi qrip peyvəndlərinin heç bir zərəri yoxdur: "Doğrudur, ola bilsin ki, insanlar ara-
sında bəzi yalnış fikirlər yayıla bilsin. Lakin, bu peyvəndlər zərərsizdir, onlar nə iflic yaradır, nə də sonsuzluğa səbəb olur".

Vasif Əliyev bildirib ki, hazırda bu vaksinlərin Azərbaycanda daha çox kimlərdə istifadə ediləcəyinə dair məlumat yoxdur,
buna nə vaxt start veriləcəyi haqda məlumat vermək hələ ki, mümkün deyil lakin, ümumi olaraq bu vaksinlərin daha çox kim-
lərdə istifadə edilə biləcəyini söyləmək olar: "Elmi olaraq deyə bilərik ki, xroniki xəstəliyi olan şəxslərdə, 6 ay ilə 5 yaş arasın-
da olan uşaqlarda, həmçinin, yaşı 50-dən çox olan insanlarda peyvənd istifadə olunmalıdır. Təbii ki, vaksinin miqdarından da
çox şey asılıdır".

Qeyd edək ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın sonuncu brifinqində TƏBİB İdarə Heyəti yanında tibbi-elmi
komitənin sədri Akif Qurbanov qeyd edib ki, dövlət səviyyəsində mövsümi qrip vaksinlərinin alınması ilə bağlı iş gedir. Yaxın
1-2 ay ərzində ölkəyə mövsümi qriplərlə bağlı vaksinlər gətiriləcək. Bildirilib ki, qriplə bərabər koronavirusa yoluxma daha çox
ağırlaşmalara gətirib çıxara bilər. Bu səbəbdən payızda qrip əleyhinə dördvalentli vaksindən istifadə ediləcək.

**Nigar Məmmədova**

# "Ermənistanda hərbi sahədə ciddi problemlər yaşanır"

***"B**ildiyimiz kimi, Ermənistanda "Müdafiə haqqında" Qanuna dəyişikliyin ictimai müzakirəyə açıqlanması nəzərdə tutulub. Burada əksini tapan əsas məsələlərdən biri də könüllü dəstələrin yaradılmasıdır. Ermənistan bunu müxtəlif səbəblərlə əlaqələndirməyə çalışır. Əslində, bu gün Ermənistan Respublikasının əhalisinin sayı sürətlə azalmaqdadır.*

Ermənistan əhalisinin bir hissəsi xarici ölkələrə köç edir. Bu gün Ermənistan ordusunda xeyli sayda muzdlu xidmət göstərən ayrı-ayrı ölkələrin vətəndaşları var ki, onlar bu prosesə cəlb olunublar və Ermənistan ordusu ilə birlikdə Azərbaycana qarşı vuruşurlar". Bunu SİA-ya millət vəkili Ceyhun Məmmədov deyib.

Deputatın sözlərinə görə, bu könüllü dəstələrin yaradılması bir daha onu göstərir ki, Ermənistanın kifayət qədər ordusu və gücü yoxdur: "Məhz buna görə də, Ermənistanda hərbi sahədə ciddi problemlər yaşanır. Bu problemlərin qarşısını almaq üçün Ermənistan rəhbərliyi könüllü dəstələrin yaradılmasına çalışır. Yəni başqa sözlə desək, dünyada qəbul olunmuş standart qaydalar vardır ki, hər bir ölkənin hərbçilərindən ibarət ordusu olur, Müdafiə Nazirliyi olur və bir çox proseslər bu qurum vasitəsilə idarə olunur. Müharibə baş verdiyi halda, bu müharibədə hər bir ölkənin öz hərbçilərindən ibarət ordusu iştirak edir. Amma Ermənistanın bu cəhdi onu göstərir ki, Ermənistan ordusunun daxilində boşluqlar var və o boşluqları doldurmaq üçün başqa dövlətlərin hərbçilərindən ibarət könüllü dəstələr yaradılır. Ermənistan çalışır ki, bu könüllü dəstələr vasitəsilə müəyyən məqsədlərinə və hədəflərinə nail olsun.



Onlar Müdafiə Nazirliyinə, əsgərlərə və hərbi qurumlara alternativ könüllü dəstələr yaradaraq müəyyən məqsədlər üçün istifadə etməyə çalışırlar. Ümumiyyətlə, bu cür proseslərin idarə olunması peşəkar ordu tərəfindən həyata keçirilməlidir. Bu, bütün dünyada tətbiq olunur. Amma Ermənistanın bu addımı isə bir neçə aspektdən izah oluna bilər. Bu məqamlardan biri də ondan ibarətdir ki, Ermənistanın orduya cəlb ediləcək, muharibələrdə iştirak edəcək kifayət qədər ordusu və gücü yoxdur. Ona görə də artıq Ermənistan könüllü dəstələrin yaradılmasına üz tutur.

Bu, bir daha sübut edir ki, Ermənistanla Azərbaycan Respublikası arasında çox böyük bir fərq var. Hal-hazırda Azərbaycan ordusunda yüksək əhval-ruhiyyə var, Azərbaycan xalqı döyüşə tam hazırdır, xalqımız müharibə əzmindədir. Bu gün Azərbaycanın kifayət qədər ordusu və gücü var. Ermənistanla döyüşmək üçün gərəkli bütün addımları atmaq üçün Azərbaycanın geniş imkanları var. Amma Ermənistan barədə biz bunu deyə bilmirik. Çünki Ermənistanın gücü və potensialı heç də bu qədər deyil. Ermənistanın Azərbaycanla cəbhə bölgəsinə çıxara biləcəyi qüvvəsi az olduğu üçün muzdlu əsgərlərdən istifadə edir. Birinci səbəb, Ermənistanın kifayət qədər gücü və ordusunun olmamasıdır. İkinci səbəb isə baş verən ölümlərin qarşısını almaq və itki sayını Ermənistan xalqından gizlətmək üçün bu məsələdən məharətlə istifadə olunur. Əsas hədəf və məqsəd də budur ki, ictimaiyyətin fikrini bu hallardan istifadə etməklə ona yönləndirir ki, ictimaiyyət Ermənistan əsgərlərinin dünyasını dəyişməsi fikrindən uzaq tutulsun. Ermənistan bu fikrlərin qarşısını almaq üçün, zaman-zaman bu addımlardan məharətlə istifadə edir. Ermənistan çalışır ki, atdığı bu addımlar vasitəsilə dırnaqarası uğurlara nail olsun. Ermənistanın nə etməsindən asılı olmayaraq biz mütləq torpaqlarımızı azad edəcəyik, tezliklə doğma dədə-baba yurdumuza qayıdacağıq. O gün uzaqda deyil".

# "Rusiya Ermənistana görə Azərbaycanla düşmən olmaz"

***"A**zərbaycan-Rusiya münasibətləri hansısa üçüncü ölkəyə görə pisləşə bilməz. Daha dəqiq desək, Rusiyanın Ermənistana görə Azərbaycanla düşmən olması mümkün deyil". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin İctimai birliklər və dini qurumlar Komitəsinin üzvü, deputatı Anar İsgəndərov Rusiyanın Azərbaycan və Ermənistan arasındakı münaqişə fonunda məsələlərə təsirindən danışarkən deyib.*

Onun sözlərinə görə, Rusiya Federasiyasının Azərbaycana olan münasibətini düşmən, Ermənistana olan münasibətini isə dost kimi qələmə vermək düzgün deyil: "Dövlətlər yaranandan bəri dövlətin dövlətə sevgisi olmayıb, dövlətin dövlətə marağı olur. Həm də dövlətlərin gücündən də çox şey asılıdır. Bu gün Azərbaycan müstəqil dövlətdir, öz siyasəti ilə müstəqildir. Azərbaycanın iqtisadi imkanları da buna imkan verir ki, heç bir dövlətlə münasibətdə onun təsiri altında olmasın. Azərbaycandan fərqli olaraq Ermənistan iqtisadi cəhətdən hansı vəziyyətdədir, məlumdur. Bununla bağlı yeni bir şey deməyə ehtiyac yoxdur. Bu gün Ermənistanı müdafiə edən dövlətlərin də vəziyyəti sabit qalmır. Bu mənada Rusiya bütün münasibətləri pozaraq Ermənistanı qanadları altına alıb Azərbaycana qarşı düşmən münasibətdə ola bilməz, bu yalnış fikirdir. Çünki, Rusiyanın Azərbaycan ilə birbaşa öz münasibəti var".

Millət vəkili vurğulayıb ki, eyni zamanda Azərbaycanı Rusiya Federasiyası ilə bağlayan çoxlu tellər var:



"Rusiya ilə çox səmimi iqtisadi münasibətlərimiz var. Bu mənada hər bir dövlətin öz maraqları olmaqla yanaşı, Azərbaycan-Rusiya münasibətləri də hansısa qonşu dövlətə görə pisləşə bilməz. Münasibətlər kəskinləşə bilməz. Lakin dövlətlərin biri-birinə olan iddiaları var. Necə ki, bir həftə bundan öncə Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Rusiya başçısı Putinə telefon zəngi edərək Rusiya Federasiyasından Ermənistana 400 tonluq hərbi silahın göndərilməsini araşdırdı. Dövlətlərarası münasibətlərdə dövlət başçılarının işi münasibətlərin hansı formada olmasını tənzimləmək və ya münasibətlərlə bağlı boşluq varsa həmin boşluqları doldurmaqdır".

Anar İsgəndərov qeyd edib ki, bu mənada, kiçik bir Ermənistana görə Rusiya Federasiyasının Azərbaycana qarşı olan münasibətində və siyasətində dəyişiklik etməsi mümkün deyil: "Həm də Belarusda baş verən hadisələr onu göstərir ki, hər bir dövlət indi özünü, öz suverenliyini, öz müstəqilliyini, öz maraqlarını qorumağa çalışır. Bir dövlət özünü başqa bir dövlətə görə oda atmaz, bu günə qədər də atmayıb".

*Nigar Məmmədova*

## Azərbaycanda 126 nəfər koronavirusa yoluxdu 144 nəfər sağaldı




Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 126 yeni yoluxma faktı qeydə alınıb, 144 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-yaverilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib. İndiyədək ölkədə ümumilikdə 36 435 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 33 847 nəfər müalicə olunaraq sağalıb, 534 nəfər vəfat edib, aktiv xəstə sayı 2054 nəfərdir.



## Vətəni, millət satan Əli Kərimlinin dərdi...

RƏFİQƏ

Ömər Xəyyama görə, "İnsanın ruhu və əxlaqı nə qədər alçaq olarsa, burnunu bir o qədər dik tutar". Səbəb aydındır - maliyyə-pul arqumenti? Satqın yalnız məntiqləmi düşünür? Bu sualları sözgəlişi demədim. Çünki işin kökü yalnız acgözlük və pul deyil. Ancaq AXCP sədri Əli Kərimliyə görə "qazanmaq" yox, varlanmaq üçün xəyanətin qiyməti "yüksəkdir". Çünki satqın üçün hər şey - satlıq maldır. Əli Kərimli kimilər üçün satıb-satılmaq bir qurtum su içmək qədər asandır.

Baxın, iyulun 12-də Ermənistan silahlı qüvvələri Ermənistan-Azərbaycan sərhədinin Tovuz rayonu istiqamətində atəşkəsi pozaraq, Azərbaycan ordusunun bölmələrini, rayonun yaşayış məntəqələrini atəşə tutdular. Təbii ki, ordumuz da Ermənistanın bu təxribatının qarşısını alıb və ermənilər öz yerlərinə geri otuzdurub. Azərbaycan Ordusunun dəqiq zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinə məxsus dayaq məntəqəsi, ağır texnika və çoxsaylı hərbçi məhv edildi. Bu, qürurverici deyilmi? Bu cür igid, mərd hərbçiləri olan ordu alqışa, hörmətə, sevgiyə layiq deyilmi?

Bu Vətəni sevən, onun şəhidi üçün göz yaşı tökən, ordumuzun zəfəri üçün dua edən, dövlətimizin ayaqda qalmasını istəyən insanlar, vətəndaşlar qəhrəman əsgərlərimizin bu qələbəsinin sevincini yaşamaq istədilər, yürüşü edərək Azərbaycan iqtidarına, Prezident İlham Əliyevə və orduya dəstəklərini ifadə etmək istədilər. Təəssüf ki, Əli Kərimli, Gültəkin Hacıbəyli, Cəmil Həsənli, Vidadi İskəndərli, Sevinc Osmanqızı və bu kimi provakator qara qüvvələr səmimi niyyətli insanların hərəkətlərinə xaricindən idarə olunaraq bu qələbəyə kölgə salmağa çalışmaq istədilər. Yenə də bəlli oldu ki, bu təxribatı törədən "erməni dəyirmanına su tökən" satqın iblis xislətli Əli Kərimli kimilərdir. Əgər belə olmasaydı elə həmin anda sosial şəbəkələrdən çağırışlar etməzdilər.

### İblis xislətlilər yenə də öz əməllərində...

İndi də son günlər AMEA-nın prezidenti Ramiz Mehdiyevin nəvəsinin toyu və bu toyda bir qrup məmurların karantin rejiminin qaydalarını pozması sanki radikal

müxalifətin əlinə göydəndüşmə oldu. İndi də başlayıblar bu olayı çözməyə. Bir də neyləsinlər, dünənə kimi, qeybətxanap yuvası olan "Milli Şura"nın "zoom" iclasları ilə dövləti, xalqı təhqir etməklə məşğul idilər, eyni çağırışı orada edirdilər, indi də bu toy məsələsi düşəndən başlayıblar də "mitinq" çağırışı etməyə: "Meydana çıxın, baxın, görün Belarusiyada xalq nə edir" deyə "çıxış yolu" göstərirlər". Doğurdan da, düşməni başqa yerdə axtarmaq lazım deyil. Təəccüblü deyil... Çünki satqın və istifadə olunanların anladıqları budur. Belə bir deyim var: "xəyanət ölümdən betər bir şeydir və bunu sadəcə anlamaq lazımdır". Lakin bu əxlaqsız və mənəviyyatsız erməni çörəyi yeyənlər üçün xəyanət etmək ən adi bir məsələdir. Belələrindən bütün rəzillikləri, riyakarlıqları, ləyaqətsizlikləri gözləmək mümkündür. Yenə də vurğulayıram ki, əslində, ortada təəccüblənəcək heç nə yoxdur. Həmişə belə olub, indi də hakimiyyətin uğurlarını "müxalifətin qələbəsi" kimi zorla xalqa sırımaq yalnız bu siyasi satqın və istifadə olunanların canındadır, qanındadır. Elə bədəxtlik də bundadır. Belə olan halda......

### "Vətən", "millət" deyən əxlaqsızlar bəlkə bir geriyə baxsınlar...

Amma təəssüf ki, geriyə çevrilməkdən qorxurlar. Çünki geridə 1992-93-cü illərdə xalqa etdikləri zülm, yaratdıqları vətəndaş müharibəsi, xalqın əmlakını talan etmə faktları və digər günahları onların gözünə görünə bilər. 1992-1993-cü illərdə Azərbaycan prezidenti olmuş Əbülfəz Elçibəy: "Rüşvət alanda milyonlarla dollar alırsınız. Alırsan, heç olmasa yüz minlərlə al, beş manat al, insafla al. Deyirlər, 200 min dollar verməlisən, yoxsa səni gömrükdən buraxmayacam, çünki sən 400 min dollar qazanacaqsan. Gəl qazancı yarı bölək...". Və bu gün sosial şəbəkələrdə dövlətin ünvanına özlərinə layiq olduqlarını deyən Vətənini, torpağını satan-satılan AXCP sədri Əli Kərimli, "Milli Şura" deyilən satqınlar yuvasına sədrlik edən, saçına, "başına" hörmət etməyən Cəmil Həsənli həyasızcasına AXC-Müsavatla bağlı dövlət başçısının dediyi real faktları özlərinə sərf edən formada "təhlil" edərək bu günkü uğurlara kölgə salmağa çalışmaqları "həyasızlığın lap 100 faizidir". Məşhur fransız ədibi Viktor Hüqo dediyi kimi: "Vətənini rüsvay etmək - ona xəyanət etmək deməkdir".

Bu satqın və şərəfsizlər bilməlidir ki, bu gün Azərbaycan dövləti elə bir inkişaf səviyyəsinə çatıb ki, qanundan yan keçmək, gizlənmək, digər vətəndaşlarla müqayisədə daha böyük üstünlüklər əldə etmək mümkün deyil, kimliyindən, tutduğu vəzifədən asılı olmayaraq hər kəs törətdiyi əməllərin cəzasının qanun çərçivəsində almalıdı və alacaq da!

# Ermənistanda "qızğın payız" gözlənilir

**Ermənistanda payız fəslinin, deyəsən, nəzərdə tutulandan da, hətta ənənəvi haldan da "qızğın" keçəcəyi gözlənilir. Necə deyərlər, cücəni payızda saymaq vaxtı çatıb və heç də Ermənistan hakimiyyətinin arzuladığı şəkildə sayılacağı gözlənilmir.**









İşğalçı ölkənin bu vəziyyətdə siyasətinin şərti xarakter daşıdığı göz qabağındadır. Ermənistanın müxalifət qüvvələrinin payız ərəfəsində ambisiyaları əhəmiyyətli dərəcədə artıb. Beynəlxalq müstəvidə Ermənistanın düşdüyü çətin durum da ab-havaya xüsusilə təsir edib və ermənilərin son döyüşlərlə yanaşı, diplomatik baxımdan da məğlubiyyəti müxtəlif qruplaşmaları əməlli-başlı qıcıqlandırıb və bununla barışmaq istəmədikləri üçün Ermənistan hakimiyyəti hazırda düşünülmüş şəkildə hədəfə alınıb.

Xarici siyasət mühiti, əlbəttə ki, daxili həyatda iştirak edənlərin payız davranışlarına şübhəsiz ki, təsir göstərəcək. Özü də mövqe və status üçün müxalifət hisslərini səfərbər etmək və idarə etmək üçün bir-biri ilə rəqabətdə olacaq. Bu mənada, Ermənistanda "qızğın payız" gözlənilir proqnozu reallığa daha yaxındır. Bu istilik, bu hərarət təbii ki, Ermənistan hakimiyyəti üçün ümumiyyətlə arzuolunmazdır. Məsələ burasındadır ki, Ermənistanda hakimiyyət uğrunda mübarizənin daha kəskin xarakter alacağını bütün erməni cəmiyyəti yaxşı bilir. Buna hazırlıq da göz qabağındadır. Yaxın gələcək üçün mənzərəni təsəvvür etmək belə istəməyən Paşinyan və onun hakimiyyəti cücənin sayılmaq vaxtının çatdığını, payızda nələrlə qarşılaşacağını dərk etsə də, özünü bilməməzliyə vurur. Çünki bunu bildiyini etiraf belə etmək ona sərf etmir. Amma bilməməzliyə vursa da, vurmasa da onunla barışmayan, ona qarşı olan qüvvələrin varlığı və yeri gələndə birləşməsi reallığı ilə qarşılaşmaq məcburiyyətindədir.

Ermənistanda hakimiyyətə müxalif qüvvələr bir deyil, iki deyil ki, bunun üstünü ört-basdır edə bilsinlər. Hansı bir qüvvəni nəzərə almamaq olar axı? Nikol biçarə uzun zamandır həbsdə saxladığı Robert Koçaryana əbəs yerə belə aqressiv deyil. Ona qarşı etdiklərini də ninki erməni cəmiyyəti, eləcə də bütün dünya ictimaiyyəti çox yaxşı bilir. Dəfələrlə Rusiya hökumətinin, yəni özlərinə "böyük qardaş" hesab etdiklərinin bu barədə iradlarına belə baxmayaraq, Paşinyan israrla Robert Koçaryanı, Ermənistanın eks-prezidentini həbsdə saxlamaqda davam edirdi.

Əslində, bu məsələyə təkcə rəqibin həbsdə saxlanılması kimi də yanaşmaq yanlışlıq olar. Çünki bu adam təkcə rəqib deyildi, nəzərə almaq lazımdır ki, o eyni zamanda Ermənistanın ikinci prezidenti olub. Bu məqam bir sıra mətləblərə aydınlıq gətirmək üçün yetərlidir. Doğrudur, bu məsələdə rəqabət, yaxud repressiya kimi mövzular var və artıq bu mövzular erməni cəmiyyətində də, dünya mediasında da dəfələrlə, özü də ardıcıl olaraq müzakirə edilib. Müzakirələr də erməni baş nazirinin haqsızlığını, qanunlara, hüquqa riayət etməməsini, eləcə də qanunları öz istədiyi şəkildə istifadə etməsini ortaya qoyub və buna bir növ hamı alışıb. Amma müzakirə mövzusu indi odur ki, Nikolun rəqib bildiyi və həbsdə saxladığı, incitdiyi adam, işğalçı ölkənin sıravilərindən, müxalifət nümayəndələrindən biri yox, prezidenti olub ki, bu da haqlı olaraq ictimai narazılıq yaradan səbəbdir. Çünki Paşinyan eks-prezidenti həbs etməklə, onu təhqir etməklə onun seçicisini də, tərəfdarlarını da təhqir etmiş oldu və özü-öz qarşısına real qüvvə, güc çıxardı.

Ermənistanın ağlına gələni edən baş nazirinin qanunsuz hərəkətləri, düşünülməmiş addımları təkcə Koçaryanla bitmir axı. Artur Vanesyan kimi Milli Təhlükəsizlik Xidmətinin rəisinin vəzifəsindən səbəbsiz yerə, yəni, Paşinyanın xoşu gəlməməsindən, onun əmrlərinə tabe olmamasından başqa hansısa normal, qəbuledilən səbəb olmadan qovulması digər bir əks qütbün, qüvvənin yaranmasına rəvac verdiyi də gizli deyil. Əlbəttə ki, bu vaxta qədər heç Artur Vanesyan da susmadı və ən kritik məqamlarda, ən həssas məsələrdə Nikol Paşinyana etirazını bildirdi, onu qınadı və ona müxalif olduğunu da bəyan elədi. Heç də bu adamın ətrafı digərlərindən az deyil. Bəlkə də ona yaxın adamların sayı Paşinyan hakimiyyətində təmsil olunanların, bu hakimiyyəti guya dəstəkləyənlərin sayından az deyil. Bu isə Nikol Paşinyan üçün yetərincə böyük problemdir və onun başağrısına səbəb olacaq amildir. Bu yerdə xatırladaq ki, Paşinyan üçün ən böyük başağrısı elə hakimiyyət məfhumudur. Çünki ayının min oyunu bir armudun üstündə olduğu kimi, bu avantüristin də ən yaralı, ən həssas yeri elə hakimiyyət kürsüsüdür ki, kor gözünü qoruyan kimi qamarladığını qoruyur. Daha doğrusu, qorumağa çalışır. Çünki qoruyacaq, yaxud qoruya bilməyəcək, bunu zaman göstərəcək. Özü də cücənin sayılacağı payızda.

Ermənistanın baş nazirinin repressiyaları, haqsızlıqları, hüquq pozuntuları, narazılıqlara rəvac verməsi sadalanan iki halla əlbəttə ki, bitmir. Bu adam Qaqik Sarukyanda qarşı da ədalətsiz və qanunsuz davrandı. Özü də Ermənistanın parlamentində təmsil olunan birinə qarşı belə davranmaqdan çəkinmədi və sonra dərk etmək məcburiyyətində qaldı ki, özünə qarşı daha bir güc, qüvvə yaradılmasına şərait yaratdı. Əlbəttə, erməni xisləti təkcə bizə, yaxud, erməni cəmiyyətinə tanış deyil və bunu bütün dünya da yaxşı bilir və hər kəsə aydındır ki, məhrumiyyətlərlə qarşılaşan erməni hər yola əl atmağa hazırdır. İndi Nikol Paşinyan Qaqik Sarukyanın atacağı o "hər yola" da hazır olmaq, ən azından zərbələrini almaq məcburiyyətindədir.

Sadalanacaq faktlar, narazılıq yaradan səbəblər, narazıların sayı bitən, tükənən deyil. Bir zaman Ermənistanın ictimai-siyasi həyatında xüsusi yeri olanlardan tutmuş, ayrı-ayrı adamlara, ən sıravi vətəndaşlara qədər Paşinyanın sancmadığı, hüquqlarını pozmadığı, qanunsuzluq tətbiq edərək əzmədiyi kimsə qalmayıb. Bir sözlə, Paşinyan özünə və komandasına qarşı narazılar ordusu yaradıb. Bəzən, onun komandasını tərk edənləri də bu mənada başa düşmək çətin deyil. Yəqin ki, biçarələr bu narazılıqlar burulğanından çəkindikləri, qorxduqları üçün, bir növ baş götürüb qaçırlar. Əslində, elə doğru edənlər, düzgün addım atanlar da həmin onlardır. Çünki bu hakimiyyət postunu, əslində dövlət çevrilişi ilə qamarlayan küçə nümayişçisinin düşünülməmiş, haqsız, ədalətsiz, qanunsuz əməllərinin əks zərbəsindən ehtiyat edənlər haqlıdırlar. Nyutonun üçüncü qanununa istinadə edərək deyə bilərik ki, Nikol Paşinyanın insanlara, Ermənistanda özünə rəqib bildiyi kəslərə sadalanan mənfi təsirlərin əks təsirlə əvəzlənəcəyi zərrə qədər şübhə yarada bilməz. Sadəcə, hər bir məsələnin zamana ehtiyacı var və indi artıq bu zaman yetişib. İndi bu payızın həmin o zaman olacağı ehtimalı çoxdur və məhz bu baxımdan politoloqlar Ermənistan, ələlxüsus, Paşinyan hakimiyyəti üçün bu payızın "isti payız" olacağı qənaətindədirlər. Proqnozlar isə erməni baş nazirinin ürəyincə deyil. Çünki belə "qızğın payız" onun sonu olacağı kimi proqnozlaşdırılır.

***İnam Hacıyev***

# Jurnalistləri "xalq, dövlət düşməni" elan edəni başqa planetdəmi axtarmaq lazımdır?

*Yaxud, çağdaş Azərbaycan mətbuatı xüsusilə (!) 23 oktyabr 2019-cu ildən etibarən sürətlə dəyişir - daha dövlətçi, daha proqressiv, daha müasir və daha güclü istiqamətə doğru!*

***Azərbaycan mediasının və media rəhbərlərinin, eləcə də jurnalistlərin Prezident Administrasiyasının keçmiş rəhbəri Ramiz Mehdiyev tərəfindən hədəfə alınması seriyası və xüsusilə, ölkəmizə dair həssas məsələlərin qəzet və elektron mətbuat səhifələrində "işıqlandırılmaması" iddiası, hətta "boş-boş tezislərlə doldurulması" yönündəki fikirləri istər-istəməz həmin iddia ətrafında düşünməyə, nəticələr çıxarmağa və ən əsası, cavab verməyə zəmin yaradır. Əlbəttə ki, ölkəmizdə yaradılan demokratik mühit, söz və ifadə azadlığı da imkan yaradır ki, bənzər iddialara qarşı müvafiq cavablar verib, onların heç də doğru olmadığını isbatlayasan.***

### Administrasiyada aparılan münbit və uğurlu kadr islahatlarının məntiqi nəticəsi göz önündədir

Cənab Prezident İlham Əliyev dəfələrlə öz çıxışlarında vurğulayır ki, ölkədə baş verən hadisələrin bir çoxunu məhz mətbuatdan oxuyur və öyrənir. O cümlədən, ictimai nəzarət faktorunu daim qabardaraq, jurnalistlərin (!) bu işdə onun ən yaxın köməkçiləri olduğunu qeyd edir. Bu məqamdan ilk olaraq belə nəticə çıxarmaq olar ki, zaman-zaman cərəyan edən neqativ olayların, problemlərin ictimailəşdirilərək, dövlət başçısının diqqətinə çatdırılması həmin məsələlərin müsbət həlli ilə nəticəsini tapır. Hətta problemlərin işıqlandırılmasına qarşı çıxan və "yuxarılara" bağlı olan aşağı instansiyalar xalqı dövlətdən qəsdən, bilərəkdən narazı salmağa çalışmaq cəhdləri də artıq boşa çıxmaq üzrədir. Əslində bu faktın özü də belə demək mümkündürsə, mətbuatın, media kapitanlarının, jurnalistlərin fədakarlığıdır. O cümlədən, Administrasiyada aparılan münbit və uğurlu kadr islahatlarının məntiqi nəticəsi göz önündədir.

### Hər hansı bir iqtidaryönlü mətbuat sərbəst şəkildə istənilən ictimai problemi işıqlandırmaq, dövlət rəhbərliyinin diqqətinə çatdırmaq istəyərkən onun qarşısına baryer qoyan kim idi?

Bəs bir müddət əvvəl vəziyyət necə idi? Daha doğrusu, artıq qaranlıq və müəmmalar doğurmağa başlayan fəaliyyətini gizlətmək məqsədi ilə nəinki baş redaktorların, eləcə də tanınmış jurnalistlərin işlərinə kölgə salmağa çalışan Ramiz müəllim jurnalistlərə xitabən "Çeynənmiş, bir-birini təkrarlayan tezisləri, içi boş fikirləri tirajlamaqla ölkəyə heç bir fayda verilə bilməz" deməklə əslində özünün zamanında belə bir vəziyyət yaratdığının fərqinə varmırmı? Yaxud, hər hansı bir iqtidaryönlü mətbuat sərbəst şəkildə istənilən ictimai problemi işıqlandırmaq, dövlət rəhbərliyinin diqqətinə çatdırmaq istəyərkən onun qarşısına baryer qoyan kim idi? Həmin problemi işıqlandırmağa müyəssər olan baş redaktorları, jurnalistləri az qala "xalq, dövlət düşməni" elan edib "baltalayanı" indi başqa planetdəmi axtarmaq lazımdır? Zamanında Azərbaycan dövlətinin apardığı uğurlu si-



yasətə qarşı çıxan bəlli xarici dairələrin, erməni lobbisinin təsiri altında fəaliyyət göstərən təşkilatların cavablarını mediada, ya da özbəsurət şəkildə verən mətbuat adamları yaranan təhlükələrinin qarşısına çıxarkən bu hərəkətləri "içiboş fikirlər" adlandırmaq nə dərəcədə ədalətlidir? Ona görədirmi ki, haqqında bəhs etdiyimiz akademik "Çox təəssüf ki, bir çox hallarda bizim qəzet və elektron informasiya vasitələrimiz qərəzsiz analizlər təqdim etmək, xalqı maarifləndirmək və gercək təhlükələr haqqında təhlillər vermək əvəzinə, ölkə üçün həssas məsələlərdə susmağa üstünlük verirlər", ittihamını irəli sürməklə əslində dövlətin və cənab Prezidentin siyasi maraqlarını müdafiəyə qalxan media adamlarının addımlarını "qərəzli" olaraq gördüyünü bəyan edir? Yaxud, "qərəzsiz analiz" dedikdə başqa nəzərdə tutulan nə ola bilər ki?

### Əgər mətbuat Ramiz Mehdiyevin istədiyi kimi deyilsə, onun ixtiyarı və haqqı yoxdur ki, jurnalistlərə "səriştəsiz", "qərəzli", "cəmiyyət üçün faydasız" adını qoyub, istədiyi səmtlərə tərəf sürükləsin

Demək, onun fikrincə, dövlətçilik maraqlarına, Vətənə, xalqa xidmət etməyi düşünmək, daxili və xarici düşmənlərlə açıq mübarizəyə getmək, informasiya müharibəsində sinəsini önə verib-döyüşmək, xalqa xidmət etmək səhv imiş (?!) Nəticə çıxarmaq olar ki, "Əgər onlar bununla xalqa xidmət etdiklərini düşünürlərsə, çox səhv edirlər" düşüncəsini ictimailəşdirməklə, hələ də mətbuatı bəlli və istədiyi çərçivədə saxlayacağına ümid edən akademik "bəlkə də qaytardılar" düşüncəsi ilə yaşamağa davam edir.

Azad və müstəqil mətbuat əlindən gələn hər şeyi edir və bundan sonra da edəcək ki, daha əvvəllər yaşadığı çərçivələr, qarşısındakı sədlər bir daha yaranmasın. Əgər mətbuat bu gün məhz Ramiz Mehdiyevin istədiyi kimi deyilsə, onun ixtiyarı və haqqı yoxdur ki, mediaya, jurnalistlərə "səriştəsiz", "qərəzli", "cəmiyyət üçün faydasız" adını qoyub, istədiyi səmtlərə tərəf sürükləsin. Sadəcə bir fakta əsaslanaraq demək olar ki, əgər bu gün mətbuatda çatışmayan cəhətlər varsa da, bu cəhətlərin yaranmasında əsas günahkar, əsas baiskar məhz onun özüdür ki, var!

Bəli, bu gün məhz Prezident İlham Əliyevin iradəsi, təşəbbüsü və mətbuata olan rəğbəti, jurnalistlərə olan mükəmməl mövqeyi nəticəsində qəzetlər, fəaliyyət göstərən informasiya agentliklərinin bir çoxu dövlətdən davamlı maliyyə yardımı alır. Bəli, məhz dövlət başçısının qayğısı nəticəsində bir çox jurnalistlər və redaktorlar mənzillərlə təmin ediliblər və bundan faydalanan hər bir media adamı öz Prezidentinə sonsuza qədər minnətdardır.

### Yoxsa hələ də düşünür ki, jurnalist faktoru onun nəzərincə "peşkadır"?

Mətbuat işçiləri də əllərində olan bütün resurslarından, imkanlarından maksimum istifadə etməklə dövlətin apardığı siyasətə dəstəyini göstərirlər, faydalarını verirlər. Bəs Ramiz Mehdiyevin "faydasız" gördükləri nədir? Ya da onun sadaladıqları heç bir əsasa söykənmir. Bəlkə "faydasızlıqları" öz ətrafında axtarsa daha yaxşı olardı? Yoxsa hələ də düşünür ki, jurnalist faktoru onun nəzərincə "peşkadır" və o da Azərbaycan mətbuatını qısnamaqda, sıxışdırmaqda, dövlət siyasətinə dəstək göstərməməsi üçün manelər yaratmaqda davam edəcək? Xeyr, əsla! Artıq nə gün o gün deyil, nə də dövran həmin dövrandır. Çağdaş Azərbaycan mətbuatı xüsusilə (!) 23 oktyabr 2019-cu ildən etibarən süərtlə dəyişir - daha dövlətçi, daha proqressiv, daha müasir və daha güclü istiqamətə doğru!

***Rövşən RƏSULOV***



**Təhmasib Novruzov**

## "Nəhəng" akademikin cılız mənəviyyatı

Allah şahidimdir ki, həyatım boyu heç vaxt yıxılana balta çalmamışam, əksinə, yıxılana balta çalanlara mane olmağa çalışmışam. Ulu Öndər Heydər Əliyevə qarşı 1990-cı illərdə genişmiqyaslı kompaniya aparıldığı bir zamanda xalqın tarixində əvəzsiz xidmətlər göstərmiş bir el ağsaqqalı kimi (O zamam yenidən hakimiyyətə qayıdacağı, müstəqil dövlətimizi təlatümlər burulğanından xilas edəcəyi, qüdrətli Azərbaycan Dövlətini quracağı haqqında söz-söhbət belə getmirdi) onu müdafiə etdiyimi hər kəs bilir. Eynilə, Prezidentliyi dönəmində dəfələrlə tənqid etdiyim Ayaz Mütəllibov ölkəni tərk edib Moskvada yaşadığı dövrdə, yenə ilk dəfə olaraq onun "xəyanətkar Prezident" olmadığını, Azərbaycanın ən ağrılı problemi olan Qarabağ məsələsini həll etmək üçün bütün imkanlarından maksimum istifadə etdiyini, lakin o zamankı qaragüruh müxalifətin buna mane ilduğunu faktlarla ortaya qoymuşam.

AXC hakimiyyətə gəldiyi ərəfədə Ali Məclisin üzvü kimi bu addıma qarşı çıxaraq, bütün gücümlə Əbülfəz Elçibəyin Prezident seçilməsinə mane olmağa çalışdığım, hakimiyyətdə olduğu müddətdə dəfələrlə mətbuatda onların səriştəsiz və yanlışlarla dolu idarəçiliklərini tənqid etdiyim halda, 1993-cü ilin iyulundan - hakimiyyəti təhvil verdikdən sonra onlara qarşı heç bir tənqidi fikir səsləndirmədim.Ta o zamana qədər ki, xaricdəki dostlarından dəstək alıb yenidən iqtidara gəlmək istəklərini gerçəkləşdirməyə can atdılar. Bunun gənc Azərbaycan Dövlətini hansı vəziyyətə salacağını yaxşı bildiyimdən susmağı özümə, xüsusilə əzablardan yenicə qurtulmuş xalqıma rəva görmədim və danışmağa qərar verdim. AXC hakimiyyəti dövründə Murtuz Ələsgərova, Ramiz Mehdiyevə, Akif Muradverdiyevə və digərlərinə qarşı rəhmətlik İskəndər Həmidovun daxili işlər naziri işlədiyi zaman hücumlarına birbaşa mane olmuşam və belə hərəkətlərin ölkədə parçalanma yarada biləcəyini əsas gətirib onu adlarını çəkdiyim adamlarla bağlı planlarından vaz keçirməyə nail olmuşam. Bir sözlə, bu və sadalamadığım onlarla fakt var ki, imkanım daxilində hər zaman təqsirsiz əzilənə dəstək verən, yıxılana çalınan baltanı göydə saxlamağa çalışan addımlar atmış, yıxılmışın qüsurlarını isə yıxılandan sonra deməyi özümə rəva bilməmişəm, əgər yenidən o qüsurları işlətməyə can atmırsa!

Bunları ona görə yazdım ki, on illər boyu Azərbycanda ən yüksək vəzifədə çalışan, faktiki olaraq vəzifəsinə və mövqeyinə görə ölkənin ikinci şəxsi olmuş, bundan istifadə edib özünə "Akademik" titulu qazandırmış Ramiz Mehdiyev haqqında düşüncələrimi cəmiyyətlə bölüşdüyümə görə kimsə məni "yıxılana balta çalmaqda" qınamasın. Əslində uzun illər Ulu Öndər Heydər Əliyevə və Prezident İlham Əliyevə "sədaqətlə"(?) xidmət etdiyini və onun məhz Rusiya ilə əlaqələrindən dövlətimizin inkişafı naminə istifadə edildiyini düşündüyümdən şəxsimə qarşı birbaşa yönəltdiyi fəaliyyətinə rəğmən heç vaxt haqqında tənqidi nəsə yazmaq haqqında fikirləşməmişəm də.

Prezident Administrasiyasının rəhbərliyindən çox hörmətlə kənarlaşdırılmasını da, səmimi deyim ki, ölkə başçısının ən doğru addımı hesab etmişəm. Fəqət yaşının ahıl çağında on illər boyu qazandığı (Daha doğrusu qazandırılan...) xətir-hörmətə rəğmən ən cılız adamların belə yol verməyəcəyi xətası ilə məni bilgisayar arxasına keçməyə vadar etdi. Azərbaycan dövlətçiliyinə vurduğu zərbələrə baxmayaraq ona qoyulan hörmətdən sui-istifadə etməsi, dövlətə zərərli fəaliyyətinin yeni formasına start verməsi iliyimə qədər işlədi və məndə dözülməz bir ikrah hissi yaratdı.

Ölkə başçısının dəfələrlə etdiyi müraciətlərə, Nazirlər Kabinetinin qərarlarına meydan oxuyaraq pandemiya şəraitində nəvəsinə toy etməsi, eks-məmurları və özünün təyin etdiyi deputatları da bu toya dəvət etməsi birbaşa təxribatdır və buna kimsə başqa don geydirə bilməz. Buna görə qınaq obyektinə çevrilməsindən utanıb, dövlət rəsmilərindən və xalqdan üzr istəmək əvəzinə, onu qınayanlara əzələ nümayiş etdirməsi isə bu təxribatın təsadüfi deyil, planlı şəkildə törədildiyindən xəbər verir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin pik həddə çatdığı, türk ordusunun Azərbaycana açıq-aşkar dəstək verdiyi, Rusiya ilə münasibətlərdə nisbi gərginliyin yarandığı bir zamanda Rusiyaya bağlı eksməmurun bu hərəkətləri birbaşa xəyanətdir və bunun başqa adı yoxdur. Heç kimə sirr deyil ki, 1994-cü ildə Dövlət Katibi vəzifəsinə təyin edildiyi (Dəqiqləşdirək: Rusiyanın təkidi ilə təyin etdirildiyi) vaxtdan ölkədə rüşvətin, korrupsiyanın başında duran, bununla cəmiyyətdə dövlətə qarşı mənfi rəy formalaşdıran Ramiz Mehdiyevin məhz indiki gərgin vaxtda bu addımları atması da Rusiyanın sifarişi hesab oluna bilər. Məni düşündürən isə başqa məsələdir.Yüksək vəzifəsindən istifadə edib özü kimi pul hərislərindən ibarət güclü tərəfdaşlar toplayan, "klan" yaradan, müxalifətin içindəki anti-dövlət qüvvələrə dəstək verməklə onları da özünə tərəf çəkən Ramiz Mehdiyev nədən bu "toy" oyununu onlardan birinin əli ilə deyil, özü saldı meydana? Bəlkə ağaları belə buyurmuşdu? Amma bir az düşünsəydi anlayardı ki, bu yaşında belə bir təxribata əl atmasaydı, bəlkə də xalq onun bu dövlətə və bu xaıqa vurduğu zərbələri unudacaqdı.

Fəqət indi unudulanları və unudulacaqları yenidən xatırlatdı hər kəsə. Xatırlatdı və əminəm ki, əgər drmazsa bu təxribatların ən böyük zərbəsi elə onun özünə dəyəcək.

# Ermənistan ordusu iflic vəziyyətində: zəif ordu, ac əsgər, təchizatsız texnika...

## Paşinyan çıxış yolunu "könüllü xalq qoşunları" adı altında muzdluları və terrorçuları cəlb etməkdə məqsədi...

***Son vaxtlar işğalçı Ermənistanın təxribatı ardıcıl olaraq başversə də güclü Azərbaycan Ordusu və rəşadətli əsgərlərimizin şücaəti nəticəsində Ermənistanını həm dərsini veriblər, həm də yerində elə otuzdurublar ki...Nəticədə işğalçı ölkənin ordusu xeyli canlı qüvvə və hərbi texnika itirərək geri çəkilsə də, yenə də öz çirkin niyyətindən əl çəkmir. Məlumdur ki, ermənilər tarix boyu alçaq, quldur, rəzil xalq olublar. Artıq 27 ilə yaxındır ki, Azərbaycan-Ermənistan, qondarma Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması istiqamətində danışıqlar aparılsa da, hələ də işğalçı ölkə terrorçuluq niyyətini açıq-aydın göstərərk danışıqlardan hər cürə bəhanələrlə boyun qaçırmaqdadır.***

Bu yerdə alman alimi Alfred Körtenin "Anadolu eskizləri" kitabından belə bir məqamı xatırlatmaq istərdim: "Bu əyalətlərdə xalqın əsas hissəsi ilə təmasda olan hər bir şəxs, demək olar ki, türkləri sevir və hörmət edir, yunanları aşağı səviyyəyə qoyur, ermənilərə isə nifrət edir. Bu yerdə bir məsəl özünü doğruldur: bir yunan iki yəhudini aldadar, bir erməni isə iki yunanı. Əgər mən türklə iş görürəmsə, onunla yazılı müqaviləyə ehtiyac yoxdur, türkün bir sözü yetər. Yunanla yazılı müqavilə bağlayıramsa, onunla belə işbirliyi vacib və əhəmiyyətlidir. Erməni ilə yazılı heç bir iş görmək olmaz, çünki onların yalan və intriqalarının öhdəsindən hətta yazılı sənəd də gələ bilməz!".

### Göründüyü kimi, belə bir məqamda sual olunur, bu təxribat, bütün bunlar Ermənistanın nəyinə lazımdır?

Qed edək ki, bu suala Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə keçirilən beynəlxalq görüşlərdə, o cümlədən Təhlükəsizlik Şurasının keçirilmiş iclasında da ətraflı cavab verdi: "Ermənistanda hökm sürən hərcmərclik və vəziyyətin böhran həddinə yaxınlaşması onları bu çirkin əməllərə sövq edib. Və bu ölkədə hamı başa düşür ki, Ermənistan hakimiyyətinin vəd etdiyi dırnaqarası çiçəklənmə xülyadır, yalandır".

Hə, doğrudan da bu günlərdə Ermənistanda ictimai fikir birmənalı şəkildə Paşinyanın əleyhinədir. Ölkə dərin böhrandadır, beynəlxalq nüfuzu yox dərəcəsindədir, ən əsası isə ordusu iflic vəziyyətindədir. Zəif ordu, ac əsgər, təchizatsız texnikası olan işğalçı ölkənin baş naziri Nikol Paşinyan çıxış yolunu olmayan orduya "Könüllü xalq qoşunları" adı altında muzdluları və terrorçuları cəlb etməkdə görür. Erməni xalqı isə, artıq iki ildən yuxarı hakimiyyətə küçədən gələn "demokrat" Paşinyanın belə bir halda sərhəddə təxribata əl atması ıb ictimai fikri yayındırmaq niyyətində olduğunu anlayır.

### <u>İqor Korotçenko:</u> "Paşinyanın əhalinin diqqətini ölkədaxili problemlərdən, siyasətinin iflasa uğramasından yayındırmaq üçün məqsədli şəkildə təxribatlar törədir"

Rusiyanın "Milli Müdafiə" jurnalının baş redaktoru, tanınmış hərbi ekspert İqor Korotçenko da o fikirdədir ki, Azərbaycanla sərhəddə təxribat Paşinyana ictimai fikri ölkədaxilindəki problemlərdən yayındırmaq üçün lazımdır: "Bu gün Ermənistanda ölkədaxili siyasi böhran hökm sürür. Bu böhran koronavirus pandemiyası ilə uğursuz mübarizə fonunda daha da dərinləşib. Məhz buna görə də Paşinyana Azərbaycanla sərhəddə təxribat lazım olub".

Rusiyalı hərbi ekspert baş vermiş insidenti olduqca təhlükəli adlandırıb: "Əlbəttə ki, Ermənistan ordusu tərəfindən Azərbaycanın mövqeləri artilleriya atəşinə tutulduqdan sonra Azərbaycan tərəfi cavab verməyə məcbur olub, atəşə atəşlə cavab verib. Mən bir daha deyirəm ki, bu, Ermənistan tərəfindən məqsədli şəkildə törədilmiş təxribatdır. Bir daha təkrarlamaq istərdim ki, məqsəd yalançı vədlərin müəllifi olan Paşinyan Ermənistan əhalisinin diqqətini ölkədaxili problemlərdən və aparılan siyasətin iflasa uğramasından yayındırmaqdır".

"İstər əvvəlki hakimiyyət, istərsə də bu günkü Paşinyan "dəstəsi" Dağlıq Qarabağ münaqişəsinin ədalətli və düzgün yolla nizamlanmasını istəmədiyini sübut etməkdədir: "Artıq 27 ilə yaxındır ki, Ermənistan Azərbaycanın ərazilərinin 20 faizini işğal altında saxlayır. Bu, bütün dünya tərəfindən tanınmış faktdır. Bununla bağlı BMT Təhlükəsizlik Şurasının qətnaməsində də işğal faktı əksini tapıb. Və bu qətnamələr kağız üzərində qalmaqdadır. Ermənistan da Dağlıq Qarabağ münaqişəsinin ədalətli və düzgün yolla nizamlanmasını arzulamır, ancaq demaqogiya ilə məşğuldur. İrəvan özünü bütün dünyada qurban kimi qələmə verir, əslində isə işğalçıdır".

Ancaq Ermənistan təkcə ölkədaxili problemlərlə üzləşməyib. Bu ölkə, onun rəhbərliyi dünya çapında olan heç bir beynəlxalq qurumda nüfuz sahibi deyil. Azərbaycan Prezidentinin də haqlı olaraq qeyd etdiyi kimi, son vaxtlar Azərbaycanın beynəlxalq arenada çox böyük uğurlara imza atması, məhz Azərbaycan Prezidentinin təşəbbüsü ilə BMT Baş Assambleyasının xüsusi sessiyasının baş tutması və bu təklifi, bu təşəbbüsü 130-dan çox ölkənin dəstəkləməsi rəsmi İrəvanda qıcıq doğurur. Ermənistan bu təşəbbüsün əleyhinə çıxıb və bir daha özünü rüsvay edib, bir daha özünü dünyadan təcrid edib: "Bu gün dünya gündəliyində birinci yerdə duran COVID ilə bağlı mübarizə məsələsində öz anlaşılmaz mövqeyi ilə bir daha bütün dünyanın diqqətini öz çirkin siyasətinə cəlb edib. Necə ola bilər ki, Azərbaycan bütün dünyanın bu mübarizədə birləşməsini tələb etdiyi bir vaxtda Ermənistan bunun əleyhinə çıxıb?".

Məhz bu səbəbdən beynəlxalq arenada Ermənistan, demək olar ki, bütün dayaqlarını itirməkdədir. Azərbaycan Prezidentinin dediyinə görə, Azərbaycanın beynəlxalq təşkilatlar çərçivəsində uğurlu fəaliyyəti, son müddət ərzində bütün aparıcı beynəlxalq təşkilatlar tərəfindən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı verilmiş açıqlamalar, qəbul edilmiş qərarlar, ölkəmizin ərazi bütövlüyünün dəstəklənməsi Ermənistanın münaqişə ilə bağlı mövqelərinə çox ciddi zərbə vurub: "Artıq bütün dünya bilir ki, Dağlıq Qarabağ əzəli tarixi Azərbaycan torpağıdır və bunu təsdiqləyən kifayət qədər sənədlər var. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır".

### Zəif iqtisadiyyat, zəif ordu, zəif idarəetmə- bütün bu zəiflərlə Ermənistan müharibə etmək istəyir?

Küçədən hakimiiyyətə gələn yalançı "demokrat" N.Paşinyan onu da yaxşı anlayır ki, hay-küy salmasına baxmayaraq müharibə başlayarsa, Ermənistanın ağır məğlubiyyətə uğrayacağı qətiyyən şübhə doğurmur.

Ancaq bu da faktordur ki, Prezident İlham Əliyev dəfələrlə bildirib ki, Azərbaycan heç vaxt işğal edilmiş torpaqlarının bu vəziyyətdə qalması ilə barışmayacaq. Paşinyanın növbəti təxribatı isə onun sonu olacaq. Buna heç kimin şübhəsi olmasın!

### Ermənistanda demoqrafik vəziyyət işğalçı ölkəni qorxuyu salıb

Belə bir durumda olan Ermənistan onu da yaxşı bilir ki, Azərbaycan döyüş ruhla yüksək mənəvi hazırlıqlı ordusu zəbt olunmuş ərazilərdən düşməni hər an işğal etdikləri ərazilərdən qovmaq imkanı var və bu da işğalçı Ermənistanı qorxuya salıb. Artıq ermənilər yaxşı bilirlər ki, bu gün Ermənistan ilə Azərbaycan arasında həm hərbi, həm iqtisadi, həm bütün başqa sahələrdə fərq çox böyükdür. Azərbaycanın Silahlı Qüvvələri durmadan inkişaf etdiyi halda Ermənistanda bunun tam əksi müşahidə olunur. Məsələn, Ermənistanda demoqrafik vəziyyətin pisləşməsi ordunun şəxsi heyətlə təminatı baxımından artıq ciddi problemə çevrilib. Vəziyyətin getdikcə acınacaqlı xarakter aldığını etiraf edən ekspertlər də bildirib ki, təcili olaraq orduya çağırış üçün müəyyən olunan yaş həddi maksimum qaldırılmalıdır, hərbi xidmətdən yayınanların sayı azaldılmalıdır. İndiki vəziyyət isə bu il də daxil olmaqla ən azı 2026-cı ilə qədər orduda çağırışçılarla bağlı ciddi problemlərin yaşanacağını göstərir. Çağırışçıların sayının azlığı ordunun şəxsi heyətlə təminatında böyük çətinliklər yaradacaq.

### Paşinyan Suriya və Livandakı muzdluları Qarabağa yığır

Ekspertlər bildirirlər ki, Paşinyanın hər bir hərəkəti aydın göstərir ki, o sələflərindən fərqli mövqe sərgiləmir. Belə ki, 2016-cı ilin aprel döyüşlərində Sarkisyan qoşunların təmas xəttində təxribat törətdi və Azərbaycan Ordusunun sərt reaksiyası ilə üzləşdi. Azərbaycan Silahlı Qüvvələri düşmənə sarsıdıcı zərbə vurmaqla bir neçə strateji yüksəkliyə nəzarəti ələ aldı. Amma sonradan müşahidə olundu ki, Sarkisyan hakimiyyəti itkiləri gizlətdi. Bundan sonra düşmən ordusunda xaos başladı və hərbi rəhbərliyə qarşı həm cəmiyyətdə, həm də hakimiyyət daxilində ittihamlar səsləndirildi. Məhz bu səbəbdən Sarkisyan artıq cəbhədə vermiş olduğu itkiləri gizlədə bilmədi. Ermənistan mediasında, xarici mətbuatda onların öz təxribatlarının qurbanına çevrildikləri üzə çıxdı. Bu gün də Paşinyan növbəti hərbi avantürasının qurbanı olmaqdadır. İyulun 12-də dövlət sərhədi boyunca Tovuz rayonu istiqamətində işğalçı rejim hərbi təxribatlar törətdi. Bu zaman dinc əhalini və mülki obyektləri də hədəf götürdü. Paşinyanın məqsədi ondan ibarət idi ki, Azərbaycan Ermənistan ərazisində atəş nöqtələrini susdursun və bundan sonra onlar bu olayı ölkəmizin özlərinə qarşı aqressiyası kimi qələmə versinlər. Ancaq Azərbaycan öz ədalətli mövqeyini bir daha sübüt edə bildi və obyetkiv informasiya beynəlxalq ictimaiyyət tərəfindən demək olar ki, həzm olundu. Həmçinin, Paşinyanın ətrafında çox ciddi dinamik şəkildə güclənməkdə olan müxalifət qüvvələri də küçə "demokrat"ı"nın ölkənin iki il ərzində hər tərəfli çökdüyünü görərək, ona qarşı hiddətləri daha da güclənməkdədir.

Belə bir vəziyyətdə Ermənistanda "Müdafiə haqqında" qanuna dəyişikliklərin edilməsi müzakirə olunmasınını səbəbi də faktiki olaraq, məhz ölkədə müdafiəni təşkil edəcək insani resurslar, ordu, orduda nizam-intizamın zəif, ümumiyyətlə olmamasıdır. Bu dəfələrlə təsdiqlənib və işğalçı ölkənin əl atdığı sonuncu təxribatlar zamanı bir daha aydın oldu ki, bu ölkənin ordusu döyüş qabiliyyətli deyil. Ona görə də yeni qanunda könüllülərin orduya cəlb olunması məsələsi aktuallaşdırılır və düşünürlər ki, bu şəkildə işğalçı Ermənistanın ordusunu gücləndirmək olar. Ancaq bu, mümkün deyil.

Bu gün iqtisadi cəhətdən ağır durumda olan Ermənistana Paşinyan muzdlu qocaları toplamaqla heç də ordunun gücləndirilməsinə nail ola bilməyəcək. Bir də hansı vəsaitlə? Bu vasitə ilə Paşinyan orduda özünə sadiq qüvvələr yaratmaqla siyasi rəqibləri önündə üstünlük qazanmağa çalışır. Çünki onun siyasi rəqibləri bu və ya digər formada ordu ilə bağlı olmuş və sonradan prezidentlik kürsüsünü əldə etmiş şəxslərdir ki, Sarkisyan da, Köçəryan da bu şəkildə eyni keçmişə malik idilər. Eyni zamanda, insani resursların qıtlığı, vətəndaşların, hərbi qulluq yaşına çatmış gənclərin ölkəni tərk etməsi, ümumiyyətlə, əhalinin ölkəni tərk etməsi Ermənistanda ordu quruculuğu işini də iflic vəziyyətinə salıb. Paşinyan elə zənn edir ki, muzdlulardan ibarət yaradacağı "könüllülər-lə" nəyəsə nail ola bilər. Absurd, yenə də absurd. Necə deyərlər: "qonşuya ümid edən şamsız qalar". Əlbəttə ki, xalq, ordu ənənəsi Ermənistanın tarixində, ümumiyyətlə olmayıb və belə olan halda "könüllülər" adı altında muzdluları və terrorçuların Ermənistan ordusuna cəlb etməsi və onların saxlanılması Ermənistan büdcəsinin öhdəsindən gələcəyi mümkünsüzdür. Ermənistanın bu niyyəti də fiaskoya uğrayacaq. Çünki Paşinyan hakimiyyətə gəldiyi gündən öz şəxsi mənafeyini güdüb. Ancaq hansı formada, hansı adla ordu yaratsa da Azərbaycan ordusu qarşısında aciz qalacağı ilə nəticələnəcək.

### <u>Arkadi Karapetyan:</u> "Azərbaycan Ordusu bizdən qat-qat güclüdür"

Təqaüddə olan erməni polkovnik Arkadi Karapetyan yerli mediaya müsahibəsində tərəflərin hərbi gücü haqda danışaraq bildirib ki, Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusundan qat-qat güclüdür.Erməni polkovniki yazır ki, ciddi iqtisadi problemləri olan Ermənistan bu günlərdə 2020-ci il üçün hərbi büdcəsini təsdiqləyib: "Rəqəmlər göstərir ki, büdcə əvvəlki illə müqayisədə 25%-dək artırılıb. Ermənistan KİV-nin yazdığına görə, gələn ilin hərbi büdcəsi təxminən 625 milyon dollar (ÜDM-in 4%-dən də az) olacaq. Müqayisə üçün Azərbaycanın hərbi büdcəsinə nəzər salsaq, görərik ki, Azərbaycanda bu rəqəm 2 milyard 260 milyon dollardır! Bu, Ermənistanın hərbi büdcəsindən təxminən 4 dəfə çoxdur. Göründüyü kimi, bu real faktordur ki, güclü Azərbaycanın büdcəsi qarşısında Ermənistanın zəif büdcəsi qarşısında hansı ordudan, hansı müharibədən dnışmaq olar? Müharibə yenidən alovlanarsa, Ermənistan mütləq və mütləq məğlub olacaq. Yoxsul işğalçı Ermənistanın zəif ordusu, zəngin dövlət olan Azərbaycanın güclü ordusu qarşısında işğalçılığı davam etdirməklə, biz bu səhv tənliyini hələ də həll edə bilmirik!".

Bir sözlə, bu isə heç cür normal idarəetmə sistemi qura bilməyən Ermənistan hakimiyyətində xaosun açıq şəkildə özünü göstərdiyindən xəbər verir.

***A.Səmədova***

# "Müxalifətçiyəm" deyənlərin acı sonluqdan qaçmaları mümkünsüzdür

***Fransız psixoloq Julyer iddia edir ki, "insanlarda satqınçılıq və xəyanət simptomları bir dəfə formalaşırsa, bu sistemli şəkildə davamlı olur və ətraf mühitə ikrah yaranır". Bu məntiqlə yanaşsaq aydın olur ki, bu gün adlarını "müxalifətçiyəm" deyənlər elə zənn edir ki, sosial şəbəkələrdə dövlətin, xalqın ünvanına nə desələr xalq inanacaq.***

Görünür psixoloq Julyerin dediyi kimi, hələ də bunlar formalaşa bilməyib, bilməyəcəklər də. Çünki bu o "müxalifətçilərdir" ki, - Əli Kərimli, Cəmil Həsənli, Məhəmməd Mirzəli, Tural Sadıqlı, Orduxan Teymurxan, Vidadi İsgəndərli, Arif Məmmədov, Sevinc Osmanqızı, Gültəkin Hacıbəyli və digər əxlaqsızlar özlərini xalqın "xilaskarı" və "qəhrəmanı" kimi təqdim edirlər. Bu o "müxalifətçilər"dir ki, eyni mühitdə qalıb, zaman-zaman bir-birilərinə xəyanət ediblər və demək olar ki, artıq bir periodiklik yaranıb və bu koronavirusdan da güclü virusa çevriliblər. Nəticə nə oldu?. Sonda ayaqqabıları belə silməyə lazım olmayan tryapka olublar.

Bax, budur həqiqət. Ancaq təəsüf doğuran odur ki, Ona görə də, Azərbaycan xalqı koronavirus epidemiyasından çıxdıqdan sonra dövlətin, millətin maraqlarını heçə sayan bu əxlaqsızlar antimilli ünsürlərin şər və böhtanlarını bağışlamayacaq və sərt ölçü götürmələrini, cəmiyyətdən təcrid olunmalarını tələb edəcək. Və bu haqq-hesab isə çox ağır olacaq.

Çox qəribədir desək haqsızlıq olar. Soruşa bilərsiniz nəyi deyirsiniz?. İndi bunu izah etməyə də ehtiyac yoxdur. Hamı yaxşı bilir ki, şəxsi ambisiyalar, gerçəklik və zaman çərçivəsində seçim etməkdə acizlik edənlər müxalifət düşərgəsində cəm olub. Deyə bilrsiniz, niyə? İlk öncə gəlin istək və arzuların başdan yuxarı qalxdığı, bacarıqla edə bilməməyin çərçivəsinin cızıldığı müxalifət düşərgəsində nələr baş verdiyini araşdıraq. Məntiq və düşüncə, qavramaq, söz eşidib, kəlmə kəsmək insan üçün normal bir şeydir. Ancaq bu normallığı müxalifət düşərgəsində görmək mümkünsüzdür. Çünki bu o müxalifətdir ki, səs-küy vasitəsilə qabağa keçəcəyini düşünür, ancaq anlamır ki, əslində səs-küyvasitəsi ilə nə qədər uzun yol qət etsələr, bir o qədər də öz ifşalarına yaxınlaşacaqlar. Müxalifət qüvvələrinə yaraşan da elə budur. Bir də müxalifət öz abırına hakim olmasa da, Azərbaycan qanunları öz göstərişlərinə hakimdir və əsla hansısa siyasi qüvvə üçün xüsusi ayrıcalıqlar tətbiq etməyib. Hər bir siyasi qüvvənin mövcudluğuna da, fəaliyyətinə də bərabər təminatlar yaradıb. Bundan sonra da həmin rentabelliyi qoruyub saxlayacaq. Ancaq bu faktı hələ də Avropa ölkələrinin küçələrində "siyasi mühacir" adı ilə Qərbin böhtan tribunası olan Məhəmməd Mirzəli, Tural Sadıqlı, Orduxan Teymurxan, Vidadi İsgəndərli, Arif Məmmədov, Sevinc Osmanqızı və bu kimi dövlətimiz əleyhinə aparılan məkrli kampaniyanın elementləridirlər. Onlar Qərbin bəzi təxribatçı təşkilatlarının və ölkələrə inqilablar, təlatümlər ixrac edən "demokratik" dövlətlərin kəşfiyyat orqanlarının qulbeçəsi, böhtan ruporu rolunda çıxış edirlər. Belələri bütün ölkələrin siyasi tarixlərinin zibil qutusunda özlərinə əbədi pasport qazanıblar. Bu günə qədər dövlətimizə qarşı yönələn, sükanı xarici kəşfiyyat orqanlarının, ermənipərəst qüvvələrin, anti-Azərbaycan şəbəkəkənin əlində olan böhtan maşınları və onun "siyasi mühacir"lər kimi xırda detalları heç vaxt istəklərinə nail ola bilməyiblər. Bundan sonra da bu, mümkün olmayacaq.

### "Siyasi mühacir"lərin söyüş "texnologiya"sı, yaxud zorlanmış mənəviyyat...

Qərb konfliktoloqları bildirirlər ki, siyasi mübarizədə (əgər buna mübarizə demək mümkündürsə) söyüş söymək iyrənc tendensiyadır. Azərbaycandan xaricə gedib oradan ölkə rəhbərliyinin, dövlətin ən üst adamlarının, onların ailə üzvlərinin ünvanına təhqir, və hədyan yağdıranların kimliyi hər kəsə bəllidir. Cəmiyyətimiz bütünlüklə beləlerini lənətləyir və siyasi "mübarizədə söyüşdən istifadə edən Vidadi İsgəndərli, Orduxan Temurxan, Məhəmməd Mirzəli, Tural Sadıqlı, Səid Nuri, Arif Məmmədov, Sevinc Osmanqızı və bu kimi mənəviyyatsızlar, şübhəsiz ki, gec-tez qanun qarşısında cavab verməli olacaqlar.

Ən maraqlısı isə, özünü "demokratik hüquq müdafiəçisi" hesab edən Vidadi İskəndərli bu günlərdə sosial şəbəkədə "Demokratik dövlət danışmaqla deyil, real mübarizə ilə qurulur" deyə çıxış zamanı gəncləri, bütünlüklə xalqı mitinqə çağırışını edəpək dövlətin, xalqın ünvanına utanmadan təhqirli sözlər işlədir. Əslində V.İsgəndərli özü də başa düşür ki, atdığı addımlar onu heç bir halda cinayət məsuliyyəti daşımaqdan yayındırmır, "siyasi mübarizə", "siyasi mühacir" adı altında səsləndirdiyi fikirlər gec-tez onun cinayət məsuliyyətinə cəlb olunması ilə nəticələnəcək. Əvvəla, insanları təhqir etmək cinayətdir. Digər tərəfdən, dövlət atributlarının, dövlətin ən üst adamlarının, onların ailə üzvlərinin təhqir olunmasından, dövlət əleyhinə, iğtişaşlara, itaətsizliyə çağırışlardan söhbət gedirsə, o zaman V.İsgəndərlinin hansı tipdə cinayətkar olduğu bəlli olur. Nəzərə alsaq ki, ölkəmiz haqqında hələ bir neçə il bundan öncə Avropada yaşayan ermənilər tərəfindən söyüş kampaniyası başladılıb və onlarla eyni dəsti-xətdə çıxış edən V.İsgəndərlinin bu gün kimlərin pulu ilə nəyə xidmət etdiyi aydın olur. Yenə də eyni ssenari. Bu əxlaqsız özü kimi danışığı da başdan ayğa kimi əxlaqsızlıq ifadələrlə doludur. Bu o V.İskəndərlidir ki, dövlətimizi ləkələmək üçün öz doğma dədəsinin(?) qəbrini təhqir etdirməkdən çəkinmədi. Nədi-nədi, mənasız ittihamlarına reaksiya verilmədiyini görüncə, bu varianta əl atdı. Ancaq bir şeyi nəzərə almadı ki, buna heç kim inanmayacaq. Ondan fərqli olaraq ən ali dəyərlərin daşıyıcısı olan şəxsiyyətlər onun dədəsinin qəbrini təhqir etdirməzlər. Artıq kələfin ucu çoxdan görünüb, bu vasitə ilə dövlətə təzyiq edə biləcəyini düşünən bu düşüncəsiz daha rəzil bir duruma düşdü.

### Sərdar Cəlaloğlu: "Siyasi mühacir" adı ilə xaricdə yaşayanların çoxu Azərbaycanda fəal siyasi mübarizə prosesində olmayan "söyüş siyasətçiləri"dir"

ADP sədri Sərdar Cəlaloğlu xaricdə yaşayan bəzi "siyasi mühacirlər" adı ilə yaşayanları "söyüş siyasətçiləri" adlandıraraq, bildirib ki, beləleri heç Azərbaycanda siyasətlə məşğul olmayıb və siyasətə qoşulublar: "Xüsusən, xaricdə yaşayan "siyasi mühacir" adı ilə yaşayanları nəzərdə tuturam. Onların bir çoxu Azərbaycanda fəal siyasi mübarizə prosesində olmayıblar. Baxın, siyasi mühacirlər də var, qeyri-siyasi mühacirlər də. Onlar tamamilə fərqli, təhqir və küçə səviyyəsində mübarizə aparırlar. Amma kimlər ki, siyasi proseslərdən keçib, onlarda bu cür qeyri-siyasi və etik normaları pozan nüanslar yoxdur. Ümumiyyətlə, təhqir, təkcə siyasi münasibətlərdə deyil, şəxsi münasibətlərdə də yolverilməzdir. Şərəf və ləyaqətin qorunması beynəlxalq hüquq normasıdır və ölkə konstitusiyası ilə müdafiə olunur".



S.Cəlaloğlu deyir ki, erməni lobbisinin təsiri altında olan bu şəxslər öz mövqelərini də aydınlaşdıra bilməyiblər: "Özü demokrat deyil, "mən demokratam" deyir, həm də qarşısındakının şərəf və ləyaqətini alçaldır. Sən özün əgər beynəlxalq hüquq normalarına zidd fəaliyyət göstərirsənsə, heç vaxt deyə bilməzsən ki, "mən hüquqlar uğrunda mübarizə aparıram". Birinci hüququ elə onun özü pozur. Bu baxımdan, onlar bəzi şeyləri qarışdırırlar. Çox ləyaqətsiz və aşağı səviyyəli sözlərdən istifadə edirlər. Adını da qoyurlar "mübarizə". Söyüş söymək nə vaxtdan "siyasi mübarizə" üsulu olub? Mən bunu həm mənəvi terror adlandırıram, həm də siyasi xuliqanlıq. Başqa ad vermək mümkün deyil. Bu, siyasi xuliqanlıqdır və əks-tərəf də buna görə istənilən hərəkəti eləyir və Azərbaycanda da onlar AXCP sədri Ə.Kərimlinin "siyasi törəmələridir". Bu cür siyasi xuliqanlığın kökünü birdəfəlik Azərbaycandan yığışdırmaq lazımdır".

### Novella Cəfəroğlu: "Bu, siyasət deyil, tərbiyəsizlikdir"

Hüquq müdafiəçisi Novella Cəfəroğlu Avropadakı "siyasi mühacir"lərin dövlət və hökumətin nüfuzlu xadimlərinə qarşı sərgilədikləri aşırı tərbiyəsizliklərə qarşı münasibət bildirərək, qeyd edib ki, ümumiyyətlə, heç bir milli azadlıq hərəkatında iştirak etməyənin indi xarici ölkədə özünü "mübariz siyasətçi" kimi təqdim etməsi yolverilməzdir. Həmçinin, təhqirlərlə çıxış edib, bunu "siyasi mübarizə", "müxalifətçilik" kimi qələmə verənlər ciddi şəkildə yanılırlar: "İlk öncə, hər kəs başa düşür ki, təhqirlə nəyəsə nail olmaq mümkün deyil. Tənqid etmək olar, amma heç kimə imkan verilmir ki, təhqir etsin. Siyasətdə isə, mübarizə daha doğru-dürüst getməlidir. Həmçinin, siyasətlə məşğul olan, siyasi mübarizə aparan şəxs rəqibinin xanımını, ailə üzvlərini necə təhqir edə bilər? Bu, insanlığa zidd davranışdır. Hansısa şəxslə siyasi mübarizə aparırsan-apar. Amma ailəni, xüsusilə, qadınları təhqir edirsənsə, artıq bu, siyasət deyil, tərbiyəsizlikdir".

"Ailəni siyasətə qatmaq olmaz. Görünür, bəziləri ailənin müqəddəs olduğunu hələ dərk edə bilmirlər" deyən hüquq müdafiəçisi, onları əxlaqsız saydığını deyib: "Qırmızı cizgiləri aşmaq əxlaqsız hərəkətdir. Xüsusilə, son günlər sosial şəbəkələrdə hər gün çıxış edən milli azadlıq hərəkatı nədir anlayışı olmayan, çıxışları başdan ayağa qədər əxlaqsız sözlərlə dövlətdə olan məmurları təhqir etməsi ilə bağlı tezliklə cəzasını alacağına inanıram. Yalanın, şər və böhtanın da ölçüsü olar... Dövlət hamımızındır. Azərbaycan dövlətinin ünvanına mənfi söz deyəndə, mənə pis təsir edir. Dövlətə çamur atanların düşməniyəm".

Göründüyü kimi, Ə.Kərimli və onun Avropada yaşayan satqın mühacir törəmələri qrant almaq üçün dövlətə və xalqa xəyanət etdiklərini özləri bəyan edirlər. "Söyüş layihəsinin" "qəhrəmanları" Avropadan daha çox qrant almaq üçün xalqa və dövlətə düşmən kəsiliblər. Onlar hədəfə çatmaq üçün bir-biri ilə yarışırlar. Avropada yaşayan "siyasi mühacirlər" Məhəmməd Mirzəli və Tural Sadıqlı, Orduxan Teymurxan, Vidadi İsgəndərli, Arif Məmmədov, Sevinc Osmanqızı və bu kimi ər əxlaqsızlar özlərini xalqın "xilaskarı" və "qəhrəmanı" kimi təqdim edirlər. Həyasızlıq bundan artıq ola bilməz. Ermənidən betər erməni ola bilməz. Necə deyərlər, ilanın ağına da, qarasına da lənət. Artıq it hürüb, karvan keçib... Amma hər şey öz qaydasındadır. Xalqı üsyana səsləyən satqınlara yerləri göstərilib. Vidadi İskəndərli kimilər Azərbaycanda gedən inkişafı, təmin olunmuş iqtisadi sabitliyi, vətəndaşların dövlətdən məmnunluğunu qəbul edə bilməsələr də, Azərbaycan vətəndaşı bilir ki, ölkəmizin gələcəyi necə olacaq, Azərbaycanda dövlətin siyasəti hansı istiqamətdədir. Bu illər ərzində Azərbaycanda vətəndaşın rifahının yaxşılaşdırılması istiqamətində görülən işlədən vətəndaşlarımız məmnundur.

Yaxın müddətdə, V. İskəndərli kimi əxlaqsızları tezliklə Azərbaycan xalqı, dövləti və qanunları ittiham edəcək, müvafiq şəkildə cəzalandıracaq. Xainlərin istər qanunvericilikdən, istərsə də xalqın məzəmmətindən yaxa qurtarmaq şansları isə yoxdur.

***Rəfiqə HÜSEYNOVA***

# Azərbaycançılıq ideyasının təbliği

***Milli şüurun formalaşmasında müstəqil dövlətçilik ənənələrinin olduqca mühüm rolu vardır. Dövlətçilik ənənələri hər hansı bir ölkədə tarixən formalaşır. Azərbaycanda müstəqil dövlətçiliyin tarixi qədim olmasa da artıq onun özünəməxsus ənənələri formalaşmışdır. Bu ənənələr az bir müddətdə o qədər zənginləşmişdir ki, onlar ümumilikdə yeni yaranan dövlətçilik qurumları üçün də örnək ola bilər. Dövlətçilik ənənələri də ictimai xarakterlidir; cəmiyyətin bütövləşməsi, milli ideyaların bəşəri ideyalara çevrilməsi, ölkədə insanların firavan həyat qura bilməsi, elmin, mədəniyyətin inkişafı bilavasitə bu ənənlərin bərqərar olunması ilə bağlıdır.***

Azərbaycan Respublikasında yaranmış müstəqil dövlətçilik ənənələrini aşağıdakı kimi ümumiləşdirmək olar: ictimai birlik, mütəşəkkillik, ictimai həmrəylik.

Müstəqil dövlətçiliyi bərqərar olunmasında ictimai birlik, mütəşəkkillik və ictimai həmrəylik ən əsas və aparıcı şərtlərdəndir. Müstəqil Azərbaycan dövlətçiliyin ilkin mərhələsində bu şərtlər xüsusilə vacib idi. Çünki ölkədə dağıdıcı və təxribatçı qüvvələr dövlətçiliyin bünövrəsinin möhkəmləndirilməsi qarşısında çox böyük maneçiliklər yaradırdılar. Buna görə də Heydər Əliyev deyirdi: “Mən hər dəfə hamını milli birliyə dəvət edirəm, milli həmrəyliyə dəvət edirəm, hamımızı birlikdə Azərbaycanın müstəqilliyini qoruyub saxlamağa dəvət edirəm”.

Azərbaycanda ictimai - siyasi sabitliyin yaradılması da məhz, bilavasitə, Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də öz müstəqilliyini elan etdi. Müstəqilliyin elan edilməsi tarixi bir məqam idi. Artıq cəmiyyətdə ictimai şüurun formalaşması səviyyəsi belə bir məqamdan istifadə olunmasına münbit şərait yaratmışdı. Enyi zamanda, Azərbaycanda müstəqilliyin elan edilməsi, əslində onun tarixi köklər üzərində bərqərar olunması idi. Heydər Əliyev Azərbaycanda müstəqilliyin elan olunmasına dair həyati reallığı belə şərh edir: “Müsətqillik əldə edən hər bir ölkə, milli azadlığını əldə edən xalq öz xoşbəxtliyinə gəlib çatır. Ancaq müstəqilliyi əldə etmək böyük nailiyyət olduğu kimi, onu yaşatmaq və əbədi etmək ondan da böyük nailiyyətdir, ondan da çətin bir işdir. XX əsrdə, 1918-ci ildə Azərbaycan dövlət müstəqilliyini əldə etdi. Bu gün tarixi düzgün təhlil etmək lazımdır. Əgər rus çar imperiyası dağılmasaydı belə bir tarixi-ictimai şərait yaranmasaydı, bizim mütərəqqi insanlarımız nə qədər mübarizə aparmış olsaydılar da heç bir müsətəqillik əldə edə bilməzdilər. Müstəqillik elan olundu, 23 aydan sonra bu dövlət, hökumət məhv oldu. Birinci, ona görə ki, daxili çəkişmələr imkan vermirdi ki, bu dövlət yaşasm. ikincisi də çar Rusiyası dağıldısa bir, iki, üç il Vətəndaş müharibəsi gedəndən sonra özünü möhkəmləndirdi və onun yerində Sovet imperiyası yarandı. Azərbaycan öz dövlət müstəqilliyini itirdi. Demək müstəqilliyi əldə etmək, onu yaşatmaq tarixi ictimai-siyasi şəraitdən asılıdır.

1991-ci ildə də Sovetlər İttifaqı dağılmasaydı heç bir qüvvə, 15 müttəfiq respublikanın heç biri öz müsətəqilliyini elan edə bilməzdi. Yəni 1991-ci ildə də 1918-ci ildə olduğu kimi Azərbaycamn dövlət müstəqilliyini elan etməsi yaranmış tarixi ictimai - siyasi vəziyyətin nəticəsində olmuşdur. Ancaq bu müstəqilliyi yaşatmaq nə cür oldu? 1991-ci ilin sonunu və 1992-ci ili götürək. 1992-ci ildə Azərbaycan müstəqilliyini saxlaya bilirdimi? Yox. 1993-cü ilin iyun ayında başlanmış vətəndaş müharibəsi Azərbaycanın müstəqilliyini məhv edirdi”.

Müstəqillik elan edildikdən sonra qarşıda bir əsas məqsəd dururdu. O da müstəqilliyin qorunub saxlanmasından ibarət idi. Ancaq o zaman hakimiyyətdə təmsil olunan şəxslər bunu edə bilmirdilər. Həmin dövrdə Azərbaycanda hakimiyyət əldən-ələ keçirdi. O dövrdə bir tərəfdən hakimiyyət iflasa uğrayırdı, digər tərəfdən isə müstəqililyin və bütövlükdə dövlətçiliyin itirilməsi təhlükəsi baş verirdi. Həmin vaxtda Azərbaycan Respublikasının üzləşdiyi bəlaların səbəblərini aşağıdakı kimi ümumiləşdirmək olar:

a) milli birlik, mütəşəkkillik, ictimai həmrəylik yaradıla bilməmişdi.

b) hakimiyyət başmdakı şəxslər milli mənafelərə xidmət etmək əvəzinə öz şəxsi mənafelərinə üstünlük verirdilər.

c) rəhbərlik edən şəxslərin dövlətçilik təcrübəsi yox idi. Hakimiyyət siyasət aləmində heç bir nüfuz qazanmamış adamların əlinə keçmişdi.

d) hakimiyyətdə olan şəxslər arasında heç kəs milli liderlik nüfuzu qazana bilməmişdi.

1993-cu il iyunun 15-də Heydər Əliyev Respublika Ali Sovetinin sədri seçildi. Ölkəmizin tarixinə qurtuluş günü kimi daxil olan həmin vaxtdan sonra dövlətçiliyin qarşısında duran müstəqilliyi qoruyub saxlamaq kimi vacib bir məsələnin həyata keçirilməsi barədə qətiyyətli addımlar atılmağa başladı. Başdan-başa xaos içərisində olan bir ölkədə ictimai birlik, mütəşəkkillik və ictimai həmrəylik yaratmaq kimi tarixi bir vəzifə Heydər Əliyevin öhədsinə düşmüşdü. Heydər Əliyev zamanı, dövrü, hadisələri düzgün qiymətləndirərək Azərbaycanın müstəqilliyini qorumaq məqsədini çox böyük siyasi bacarıqla həyata keçirdi. Bunun üçün ilk növbədə xalqı mütəşəkkil etmək lazım idi. Heydər Əliyev hələ Sovet dövründə Azərbaycana rəhbərlik etdiyi zaman əhalinin rifahının yaxşılaşdırılması üçün bütün imkanlardan istifadə etmişdi. Xalq ona inanırdı. Onu xilaskar hesab edirdi. Ona görə də tezliklə xlaq Heydər Əliyevin ətrafında sıx birləşməyə başladı.

Hələ Heydər Əliyev 1991-ci ildə Naxçıvanda ikən dekabrın 16-da Dünya azərbaycanlılarının həmrəyliyi ideyasını irəli sürmüşdü. 1991-ci il dekabrın 25-də bu ideya Azərbaycan Ali Soveti tərəfindən qərarlaşdırıl- dı. Bu ideya bütün azərbaycanlıları milli həmrəyliyə çağırırdı, milli şüurun canlandırılmasma və mənəvi birliyə dəvət edirdi. Ona görə də həmin ideya tezliklə öz bəhrəsini verməyə başladı. Yarandığı müddətdə öz tarixi vəzifəsini uğurla həyata keçirən bu ideya sonrakı vıaxtlarda da milli - mənəvi birliyin canlandırılmasmda çox böyük əhəmiyyət kəsb etməyə başladı. Belə ki, Dünya azərbaycanlılarının Bakı şəhərində 2001-ci il noyabrın 9-10-u günləri keçirilən I, 16 mart 2006-cı ildə keçirilən II qurultayları dünyanın müxtəlif guşələrində yaşayan azərbaycanlı əhalinin milli şüurunda bir oyanış və dirçəliş yaratmış oldu. Bu, azərbaycanlıların milli, mənəvi və etnik - psixoloji səfərbərlik nümunəsi idi.

***Vahid Ömərov f.ü.f.d.dos.***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “Azərbaycançılıq və müstəqil dövlətçilik ənənələri” istiqaməti çərçivəsində hazırlanıb*

Azərbaycanda ictimai - siyasi sabitliyin yaradılması da məhz, bilavasitə, Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də öz müstəqilliyini elan etdi. Müstəqilliyin elan edilməsi tarixi bir məqam idi. Artıq cəmiyyətdə ictimai şüurun formalaşması səviyyəsi belə bir məqamdan istifadə olunmasına münbit şərait yaratmışdı. Enyi zamanda, Azərbaycanda müstəqilliyin elan edilməsi, əslində onun tarixi köklər üzərində bərqərar olunması idi. Heydər Əliyev Azərbaycanda müstəqilliyin elan olunmasına dair həyati reallığı belə şərh edir: “Müsətqillik əldə edən hər bir ölkə, milli azadlığını əldə edən xalq öz xoşbəxtliyinə gəlib çatır. Ancaq müstəqilliyi əldə etmək böyük nailiyyət olduğu kimi, onu yaşatmaq və əbədi etmək ondan da böyük nailiyyətdir, ondan da çətin bir işdir. XX əsrdə, 1918-ci ildə Azərbaycan dövlət müstəqilliyini əldə etdi



Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

1 sentyabr

## “Qarabağ”ın Çempionlar Liqasındakı rəqibi açıqlandı



Futbol üzrə UEFA Çempionlar Liqasının 3-cü təsnifat mərhələsinin püşkatma mərasimi keçirilib. Qol.az xəbər verir ki, səpələnmişlər səbətində yer alan təmsilçimiz “Qarabağ”ın da rəqibi müəyyənləşib. Ağdam klubu bu mərhələdə Norveç təmsilçisi “Molde” ilə qarşılaşacaq. İlk iki oyunu evdə keçirən “Qarabağ” bu rəqibi ilə də Bakıda qarşılaşacaq.Qeyd edək ki, Çempionlar Liqasının 3-cü təsnifat mərhələsinin oyunları 15-16 sentyabr tarixlərində keçiriləcək.

## “Neftçi” “Qalatasaray”a rəqib oldu!




Avqustun 31-də İsveçrənin Nyon şəhərində UEFA Avropa Liqasında II təsnifat mərhələsinin püşkü atılıb. Ölkəmizin bu turnirdəki yeganə təmsilçisi olan Bakının “Neftçi” klubunun hansı komanda ilə qarşılaşacağını ölkəmizin idman azarkeşləri maraqla gözləyirdilər. Püşkün nəticəsindən sonra məlum oldu ki, “Neftçi” II təsnifat mərhələsində evdə Türkiyənin “Qalatasaray” klubu ilə qarşılaşacaq. Ölkəmizdə də kifayət qədər çoxminli azarkeş kütləsinə malik olan istanbul klubu ilə “ağ-qaralar”ın görüşü, sentyabrın 17-də Bakıda keçiriləcək.

Bundan başqa, “Sumqayıt”ı mübarizədən kənarlaşdıran Şimali Makedoniya “Şkendiya”sı Rumıniya “Botoşani”sinə, “Keşlə”ni üstələmiş Albaniya “Laçi”si isə İsrailin “Hapoel” (Beer-Şeva) komandasına rəqib olub.

UEFA Çempionlar Liqasının II təsnifat mərhələsində uduzan 10 komandadan ikisi - “Tirana” (Albaniya) və “Lüdoqorets” (Bolqarıstan) III təsnifat mərhələsindən azad olunub. Püşk sözügedən komandaları birbaşa turnirin pley-offuna yüksəldib.

## Levandovski futbola nə vaxt “əlvida” deyəcəyini açıqladı



2019/20 mövsümündə karyerasının ən yaxşı sezonunu keçirən Levandovski futbolu tərk etmək barədə düşünmür.

Polşalı oyunçu Robert Levandovski hələ 40 yaşına kimi oynamaq istədiyini deyib. Bu yaxınlarda 32 yaşı tamam olan Levandovski 2023-cü ildə “Bavariya” ilə müqaviləsi bitəndən sonra klubda qalıb-qalmayacağı ilə sualları cavablayıb.

“Bu mənim üçün son olmayacaq. Əlbəttə, karyeramı “Bavariya”da başa vurmaq bir seçimdir, lakin qarşıda hələ çox illər var”. “Karyeramın sonu barədə düşünmürəm. Bəlkə hələ 8 il oynaya bilərəm”, deyə Robert Levandovski qeyd edib.

## Bu fotoya bir saata 3 milyon bəyənmə gəldi





Hamilə olan amerikalı super model Cici Hadidin “Instagram” hesabından paylaşdığı şəkillər az müddət ərzində üç milyondan artıq bəyənmə qazanıb. “Mələk böyüyür”, - deyə o, fotoya şərh bildirib. Feşn-fotoqraflar Luici Mureno və Yanqo Hensinin birgə çəkdiyi görüntülərdə super model şəffaf paltarda əks olunub. Bir çox pərəstişkarlarla yanaşı, məşhurlar da paylaşımdan heyranlıqlarını bildiriblər. “Dünyanın ən gözəl hisslərindən biri. Təbrik edirəm, gözəl qız”, - deyə bu il özü də ana olan model Eşşli Qrem yazıb. Hollandiyalı model Luna Beyl isə “İnanılmazdır” yazıb. Britaniyalı müğənni Karen Elson onun möhtəşəm göründüyünü vurğulayıb. Danimarkalı super model Helena Kristensen isə “Mələyin mələyi olacaq”, - deyə şəklə münasibətini bildirib.

“E! News”un məlumatına görə, 25 yaşlı Cici Hadid və sevgilisi məşhur ifaçı Zeyn Malik ilk dəfə valideyn olacaqlar. /Oxu.az

## Məktəbə gedəcək uşaqlarımızı koronavirusdan necə qoruyaq?

### Baş pediatrdan XƏBƏRDARLIQ!

***Sentyabrın 15-dən yeni tədris ili başlayır. Xəbər verildiyi kimi bu tədris ilində birinci və dördüncü siniflər məktəblərə gedəcəklər. Nəzərə alsaq ki, ölkədə koronavirus təhlükəsi hələ də davam edir və yoluxmaların sayı 100 nəfərdən çoxdur, burada uşaqlar da real yoluxma mənbəyi ola bilər.***



Qeyd edək ki, Azərbaycanda uşaqların koronavirusa yoluxanların sayı 11 faiz təşkil edir. Yaş qrupları üzrə yoluxma isə belədir - 0-9 yaş - 5%, 10-19 yaş - 6%.

Mütəxəssislər də bizi qarşıda təhlükəli vəziyyətin gözlədiyini bildirirlər. Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktoru, respublikanın Baş pediatrı Nəsib Quliyev BAKU.WS-ə bildirib ki, uşaqların kollektiv arasında təmas halları genişlənir. “Havalar soyuyur, orqanizmi möhkəmləndirilməmiş uşaqlarda xəstəliyə yoluxma ehtimalı artmış olur. Ona görə də özümüzü bu təhlükələrdən qorumaq üçün hazırlığımızı davam etdirməliyik. Hər kəs bilməlidir ki, xəstəlikdən qorunmağın birinci üsulu orqanizmi möhkəmləndirməkdir. Eyni zamanda qoruyucu rejimə də ciddi nəzarət etmək lazımdır”.

Bəzi sosial şəbəkələrdə, o cümlədən də ÜST-də bildirilmişdi ki, 12 yaşa qədər uşaqların maska taxması məsləhət deyil. N.Quliyev də həmin fikirlərlə razılaşıb. “Uşaqların temperaturu yoxlanılaraq dərsə buraxılacaq. Əgər bunlarda heç bir problem yoxdursa, onda böyüklər maska taxmaqla uşaqları qorumuş olurlar. Hər kəs maska istifadə edəndə özündən daha çox qarşısındakını qorumuş olur. Belə qərara gəlinib ki, kiçik uşaqlar maska taxmasınlar. Çünki onlar gigiyenik qaydaları bilmirlər, maskanı tez çirkləndirirlər. Bunun xeyrindən daha çox zərəri olur”. Baş pediatr deyir ki, koronavirus təhlükəsi bütün yaş qrupundakı uşaqlar üçün realdır: “Uşaqların hamısı risklidir. Ölüm halına az rast gəlinsə də, çox ağır fəsadlar ola bilir. Ona görə də bütün yaş qrupunda olan uşaqları qorumalıyıq”.

## “”Qalatasaray”a hörmət edirik, ancaq bizim də hədəflərimiz var”

“Neftçi”nin baş məşqçisi Füzuli Məmmədov UEFA Avropa Liqasının ikinci təsnifat mərhələsində püşkün nəticəsinə münasibət bildirib. “Ağ-qaralar”ın baş məşqçisi, klubun rəsmi saytına açıqlamasında komandasının “Qalatasaray”la (Türkiyə) oyuna qələbə qazanmaq üçün çıxacağını deyib: “Püşkatmadan əvvəl də demişdim, potensial rəqiblərimizdən hansı ilə düşəcəyimizin fərqi yox idi. Çünki üçü də güclü komandalardır. Amma əsas istəyimiz evdə oynamaq idi ki, bu da oldu. “Qalatasaray”la qarşılaşacağıq. Türkiyənin ən böyük komandalarından biridir. Rəqibə hörmətlə yanaşırıq, lakin bizim də hədəfimiz var. Meydana qələbə qazanmaq üçün çıxacağıq”.



Qeyd edək ki, “Neftçi” - “Qalatasaray” oyunu sentyabrın 17-də “Bakcell Arena”da keçiriləcək.

## ELAN

Hüseynov Eldar Vahid oğlunun adına verilmiş “ Əfqanıstan müharibəsi veteranı” vəsiqəsi 28 iyul 2019-cu ildə Suraxanı r-nu, Hövsan qəsəbəsi ərazisində şəxsi avtomobilindən digər sənədlərlə bərabər oğurlanmışdır. Tapan şəxslərdən redaksiya ilə əlaqə saxlamaq xahiş olunur.

***Baş redaktor:***

**Bəhruz Quliyev**

***Baş redaktorun müavinləri:***

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in kompuer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**